DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 02 (343) / FEVRAL 2020-Cİ İL

# PREZİDENT İLHAM ƏLİYEV XOCALI SOYQIRIMI QURBANLARININ XATİRƏSİNİ ANIM MƏRASİMİNDƏ İŞTİRAK EDİB



1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər. Bu faciədən 28 il ötür. Həmin kütləvi qırğın nəticəsində 106-sı qadın, 63-ü uşaq, 70-i qoca olmaqla 613 nəfər amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, 155 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 132 uşaq isə valideynlərindən birini itirdi. Hər il dünya azərbaycanlıları və ədaləti uca tutanlar Xocalı soyqırımı qurbanlarının xatirəsini anırlar.

Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar anım mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva anım mərasimində iştirak ediblər.

Abidənin yanında fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyev abidənin önünə əklil qoyub, soyqırımı qurbanlarının xatirəsinə ehtiramını bildirib.

Birinci xanım Mehriban Əliyeva, dövlət və hökumət nümayəndələri, ölkəmizdəki dini konfessiyaların rəhbərləri abidənin önünə gül dəstələri qoyublar.

Xocalı faciəsi 200 ilə yaxın bir müddətdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin davamı və qanlı səhifəsidir. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülüb, 3 nəfər diri-diri yandırılıb, başlarının dərisi soyulub, bədən əzaları kəsilib, gözləri çıxarılıb, hamilə qadınların qarnı süngü ilə deşik-deşik edilib. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və qismən məhv edilməsi niyyəti ilə törədilməsi Xocalı faciəsinin beynəlxalq hüquqa əsasən məhz soyqırımı olduğunu təsdiq edir.

Dünya bu acı həqiqəti bilməli və insanlığa qarşı törədilən bu fakt öz hüquqi qiymətini almalıdır. Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən, Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl fəaliyyət göstərir. Prezident İlham Əliyev Xocalı faciəsinin təcavüzkar erməni millətçilərinin yüz illiklər boyu Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi qiymətləndirib. Çünki XX əsrin sonunda dünyanın gözü qarşısında baş verən bu kütləvi qırğın hadisəsi öz amansızlığına və qəddarlığına görə təkcə Azərbaycan xalqına qarşı deyil, bütövlükdə bəşəriyyətə və insanlığa qarşı törədilən cinayət idi.

davamı səh. 2

İRANDAKI DİNİ MƏKANLARA ZİYARƏT TƏŞKİL EDƏNLƏRƏ TÖVSİYƏLƏR VERİLİB



Səh. 5

RƏŞAD MƏCİD: “XXI ƏSRDƏ İNSANLARIN CƏHALƏTƏ, XURAFATA YUVARLANDIĞINI GÖRƏNDƏ HEYRƏT EDİRƏM”



Səh. 8-9

SƏUDİYYƏ ƏRƏBİSTANI ÜMRƏ ZİYARƏTLƏRİNİ DAYANDIRDI



Səh. 10

MÜQƏDDƏS ZAMAN DİLİMİ - ÜÇ AYLAR



Səh. 11

# PREZİDENT İLHAM ƏLİYEV XOCALI SOYQIRIMI QURBANLARININ XATİRƏSİNİ ANIM MƏRASİMİNDƏ İŞTİRAK EDİB

əvvəli səh. 1

Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Xocalı faciəsi əsil siyasi və hüquqi qiymətini aldı. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı Soyqırımı Günü kimi qəbul etdi. O dövrdən başlayaraq dünya azərbaycanlıları soyqırımının bütün dünyada tanıdılması istiqamətində fəallığa çağırıldı, bununla əlaqədar onlara müraciət edildi. Həmin vaxtdan Azərbaycan diasporu Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində fəal iş görməyə başlayıb. Xocalı soyqırımı qurbanlarının xatirəsi bu gün dünyanın yüzlərlə şəhərlərində anılır. Qanlı qırğınla bağlı faktlar növbəti ildönümündə də beynəlxalq təşkilatlar qarşısında bir daha nümayiş etdirilir.

Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun da xüsusi xidmətləri var. Fond Xocalı soyqırımı ilə əlaqədar xarici ölkələrdə layihələr həyata keçirir. Məqsəd bu soyqırımının dünya ictimaiyyətinə çatdırılması və erməni vəhşiliklərini əks etdirən materialların beynəlxalq təşkilatlar qarşısında nümayiş etdirilməsidir. Fondun həyata keçirdiyi "Qarabağ həqiqətləri" silsiləsi və işğal olunan ərazilərdə mədəni-tarixi abidələrin dağıdılması ilə bağlı ingilis dilində nəşr olunan kitab və bukletlər xaricdə yayılır. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanan "Xocalıya ədalət!" kampaniyası çərçivəsində dünya ölkələrində mitinqlər, yürüşlər və tədbirlər təşkil olunur.

Yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü artıq ifşa olunub və dünya ictimai fikri Xocalı həqiqətlərini qəbul etməyə başlayıb. Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərar və qətnamələrində əks olunur. Dünyanın 56 ölkəsinin üzv olduğu İslam Əməkdaşlıq Təşkilatı Xocalı faciəsini insanlığa qarşı cinayət kimi qiymətləndirib və onu soyqırımı kimi tanıyıb. Təşkilat üzv dövlətləri həmin faciəyə müvafiq siyasi-hüquqi qiymət verməyə çağırıb. İndiyə qədər 10-dan çox ölkə Xocalı qətliamını soyqırımı kimi tanıyıb.

Xocalı soyqırımını törətməkdə düşmənin məqsədi Azərbaycan xalqını sarsıtmaq, suverenlik və ərazi bütövlüyü uğrunda mübarizədən çəkindirmək və torpaqlarımızı zorla ələ keçirmək olsa da, bu ağır faciə xalqımızı daha da mətinləşdirdi, qəhrəman oğul və qızlarımızı müqəddəs Vətən və milli dövlətçiliyimiz naminə qətiyyətli və mütəşəkkil mübarizəyə səfərbər etdi. Hər il soyqırımı qurbanlarının əziz xatirəsinin ümumxalq səviyyəsində yad edilməsi onu göstərir ki, Xocalıda ermənilərin həyata keçirdiyi dəhşətli qətliam xalqımızın yaddaşından heç vaxt silinməyəcək, gələcək nəsillər Xocalı soyqırımının dəhşətlərini heç zaman unutmayacaq, bu soyqırımını həyata keçirənlər gec-tez ədalət məhkəməsi qarşısında cavab verərək layiqli cəzalarını alacaq, şəhidlərimizin qanı yerdə qalmayacaq.

Ermənilər Xocalı soyqırımını törətməklə xalqımızın mübarizə əzmini qırmaq istədilər. Amma faciələrimiz bizi daha da möhkəmləndirdi. Biz bir xalq olaraq daha güclü və əzmli olduq. Biz güclü dövlət yaratdıq. O dövlət ki, bu gün dünyada söz və nüfuz sahibidir. Azərbaycan dostluq və tərəfdaşlığın nümunəsini dünyada yayan və təbliğ edən ölkələr sırasındadır. İqtisadi və siyasi gücünü durmadan artıran, regionda sülhün və təhlükəsizliyin təmin olunmasına töhfələr verən ölkəmiz Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, ərazi bütövlüyü çərçivəsində həllinə də nail olacaq. Bunu şərtləndirən ən böyük amillər xalqımızın vətənpərvərliyi, döyüşkən ruhu, torpağa məhəbbəti, həmçinin dövlətimizin başçısının uğurlu siyasəti və qətiyyətli mövqeyidir.

"Ermənilərin fikri özlərinə getməsin. Onlar bəlkə də öz tarixi vətənini unuda bilərlər. Azərbaycan xalqı heç vaxt öz tarixi vətənini unuda bilməz. Bu gün qaçqın şəhərciklərində, Bakıda, başqa yerlərdə Dağlıq Qarabağdan, işğal edilmiş bölgələrdən olan ailələrdə doğulan uşaqlar bir amalla, bir arzu ilə yaşayırlar ki, doğma torpaqlarına qayıtsınlar", - deyən Prezident İlham Əliyevin bu fikrinin təməlində çox güclü ideya dayanır: Biz öz tarixi torpaqlarımıza qayıdacağıq! Bu, bütün əzmini, dəyanətini canilərin məsuliyyətə cəlb olunmasına, belə kütləvi vəhşilik və soyqırımlarının bir daha təkrarlanmamasına yönəldən Azərbaycan dövlətinin zəfər yürüşü olacaq.

---

# PREZİDENT İLHAM ƏLİYEVİN VATİKANDA MÜQƏDDƏS TAXT-TACIN DÖVLƏT KATİBİ KARDİNAL PİETRO PAROLİN İLƏ GÖRÜŞÜ OLUB

## BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA PAPA CƏNGAVƏR ORDENİNİN ƏN ALİ DƏRƏCƏSİNƏ LAYİQ GÖRÜLÜB

Fevralın 22-də Vatikana səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolin ilə görüşü olub.




Dövlətimizin başçısı Roma Papasının 2016-cı ildə Azərbaycana səfərini qeyd edib. Bildirib ki, Azərbaycan dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqi istiqamətində fəaliyyətini fəal şəkildə davam etdirir. Prezident İlham Əliyev ötən il Bakıda Dünya dini liderlərinin II Sammitinin keçirildiyini bildirərək bu tədbirdə Vatikan nümayəndəsinin də iştirak etdiyini xatırladıb.

Dövlətimizin başçısı ölkəmizdə etnik və dini baxımdan qarşılıqlı anlaşmanın olduğunu, müxtəlif dinlərin nümayəndələrinin dinc şəraitdə birgə yaşadıqlarını qeyd edib. Prezident İlham Əliyev Azərbaycanın 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrliyi dövründə dinlərarası və mədəniyyətlərarası dialoqun, multikulturalizmin prioritet olacağını vurğulayıb.

Kardinal Pietro Parolin Azərbaycan ilə Vatikan arasında xüsusi münasibətlərin olduğunu bildirib. O, Papa II İohan Pavelin və Papa Fransiskin Azərbaycana səfərlərini xatırladıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasında mədəniyyətlərarası dialoqun, multikulturalizmin, həmçinin müsəlmanlar, xristianlar və yəhudilər arasında harmoniyanın möhkəmləndiyini vurğulayıb. Pietro Parolin Azərbaycanın beynəlxalq münasibətlərdə çoxtərəfliliyə böyük əhəmiyyət verməsini təqdir etdiyini bildirib. O, həmçinin Azərbaycanda Katolik Kilsəsinin fəaliyyəti üçün yaradılan şəraitin yüksək qiymətləndirildiyini diqqətə çatdırıb.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin mövqeyini bir daha diqqətə çatdırıb, Ermənistanın regionda destruktiv siyasət yürütdüyünü bildirib. Dövlətimizin başçısı hazırda Ermənistan tərəfindən danışıqlar prosesinə xələl gətirən ziddiyyətli açıqlamaların verildiyini deyib və münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə, Helsinki Yekun Aktına uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməli olduğunu vurğulayıb.

Söhbət zamanı Azərbaycanın regiondakı rolu və qonşu ölkələrlə münasibətləri müsbət qiymətləndirilib.

Sonra kardinal Pietro Parolin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevaya Papa Cəngavər Ordeninin ən ali dərəcəsi olan IX Piy Ordeninin Böyük Xaçını (Dama di Gran Croce dell'ordine Piano) təqdim edib.

Birinci vitse-prezident Mehriban Əliyeva bu ordenə mədəniyyətin, o cümlədən Müqəddəs Taxt-Tac təsisatları ilə qarşılıqlı əlaqələrin inkişafına verdiyi töhfələrə görə layiq görülüb.

Kardinal Pietro Parolin Mehriban Əliyevaya bu mükafatı təqdim etməkdən şərəf hissi keçirdiyini bildirib.

**Birinci vitse-prezident Mehriban ƏLİYEVA deyib:**

-Kardinal həzrətləri.

Məni Müqəddəs Taxt-Tacın yüksək ordeni ilə təltif etdiyinizə görə sizə və Zati-müqəddəsləri Roma Papası Fransiskə dərin minnətdarlığımı bildirirəm. Bu, mənim üçün böyük şərəfdir.

Mən bu ordeni Vatikan ilə Azərbaycanın ikitərəfli münasibətlərinin yüksək səviyyədə olmasının daha bir təsdiqi kimi qiymətləndirirəm. Çox şadam ki, bu münasibətlərin möhkəmlənməsində mənim də töhfəm var. Səmərəli əməkdaşlığın qurulmasında əməyi olan hər bir insana, Vatikanda olan bütün dostlarıma, xüsusilə də kardinal Ravaziyə dərin minnətdarlığımı bildirirəm.

Bir daha yüksək təltifə, göstərdiyiniz qonaqpərvərliyə və səmimiyyətə görə sizə dərin minnətdarlığımı bildirirəm. Çox sağ olun.

**Kardinal Pietro Parolin:** Sağ olun Zati-aliləri. Mən də şəxsən öz tərəfimdən bu jesti bizim artıq uzun illər ərzində aramızda təşəkkül tapmış bu münasibətlərin təzahürü kimi görürəm. Hesab edirəm ki, gələcəkdə ikitərəfli qaydada demək olar ki, bütün sahələrdə və xüsusən də mədəniyyət sahəsində Müqəddəs Taxt-Tacla Sizin ölkəniz arasındakı əlaqələri daha da dərinləşdirəcəyik. Şəxsən Sizi, Sizin həyat yoldaşınızı və bütövlükdə ölkənizi səmimi qəlbdən təbrik edirəm.

**Birinci vitse-prezident Mehriban Əliyeva:** Çox sağ olun, təşəkkür edirəm.

Qeyd edək ki, IX Piy Ordeni 1847-ci ildə təsis edilib. Bu ordenlə kilsə və cəmiyyət qarşısında xidmətlərə görə təltif olunurlar. Böyük Xaç – dövlət başçılarına və yüksəkvəzifəli dövlət xadimlərinə təqdim olunan xüsusi dərəcədir.

İtaliya Respublikasının hazırkı Prezidenti Sercio Mattarella, İtaliya dövlətinin bir sıra sabiq rəhbərləri, o cümlədən Corcio Napolitano, həmçinin tac qoyulmuş şəxslər – İsveç Kralı XVI Qustav, Lüksemburqun Böyük Hersoqu Anri, İspaniya Kralı Xuan Karlos və Belçika Kralı II Albert bu ordenə layiq görülənlər sırasındadır.

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA VATİKANDA PAPA FRANSİSK İLƏ GÖRÜŞÜBLƏR

Fevralın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vatikanda olublar.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Vatikanda rəsmi qarşılanma mərasimi olub.

Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Katolik Kilsəsinin rəhbəri Papa Fransisk ilə görüşüblər.

Azərbaycan Prezidenti İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı salamlayan Roma Papası onların Vatikana səfərlərini və özünün 2016-cı ildə Azərbaycana səfərini xatırladaraq bu səfərdən məmnun qaldığını bildirib.

Azərbaycanda ictimai-siyasi sabitliyin hökm sürdüyünü, xalqımızın rifah içərisində yaşadığını qeyd edən Papa Fransisk ölkəmizdə dini icmalar arasındakı tolerant münasibətlərə toxunub. Bildirib ki, dünyanın bir çox yerində gərginlik və münaqişələrin artdığı, bəzi dairələrin dini amildən istifadə edərək ədavəti və nifaqı daha da yaymağa çalışdığı bir vaxtda Azərbaycan əsl tolerantlıq nümunəsidir.



Roma Papası Heydər Əliyev Fondu tərəfindən Vatikanda həyata keçirilən təmir-bərpa işlərini qeyd edib, Azərbaycan hökumətinə, xüsusilə də Fondun prezidenti Mehriban Əliyevaya minnətdarlığını bildirib. Vurğulayıb ki, Vatikan Heydər Əliyev Fondu tərəfindən burada aparılan bərpa işlərini heç vaxt yaddan çıxarmayacaq. Çünki məhz Heydər Əliyev Fondunun layihələri sayəsində Vatikanda bir çox tarixi abidələrin, o cümlədən katakombaların bərpasına nail olunub.

Prezident İlham Əliyev deyib ki, Papa Fransiskin Azərbaycana səfəri dünyada sivilizasiyalar və dinlər arasında münasibətlərin daha da inkişaf etdirilməsində xüsusi rol oynayan ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edir. Dövlətimizin başçısı bildirib ki, Azərbaycan bu baxımdan bir çox mühüm beynəlxalq tədbirə ev sahibliyi edib. Ölkəmiz bütün dünyada dinlərin nümayəndələri arasında qarşılıqlı anlaşmanın, qardaşlıq və həmrəylik hisslərinin bərqərar olmasına çalışır və bu baxımdan dünyaya nümunədir. Azərbaycanın təqdim etdiyi tolerantlıq və birgəyaşayış nümunəsi dünyada münaqişələrin və toqquşmaların aradan qaldırılmasına xidmət edən əsas meyarlardan biridir.

Prezident İlham Əliyev Müqəddəs Taxt-Tac ilə Azərbaycan arasında qurulmuş münasibətlər əsasında aparılan əməkdaşlığın daha da genişləndiriləcəyini vurğulayıb.

Daha sonra qarşılıqlı hədiyyələr təqdim edilib.

# "AZƏRBAYCANIN DÖVLƏT-DİN MODELİ: DÜNYƏVİLİK"





Fevralın 17-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Salyan Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə Salyan rayonunda "Azərbaycanın dövlət-din modeli: dünyəvilik" mövzusunda ikigünlük regional konfrans keçirilib.

Orta məktəb direktorları və təlim-tərbiyə işləri üzrə direktor müavinləri, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər, məktəb psixoloqları və rayonun aktiv gənclərinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan RİH başçısının müavini Rəşad Cəbrayılov Salyandakı dini durum barədə məlumat verib. Vurğulayıb ki, rayonda mövcud olan məscidlərdə vətəndaşlar sərbəst şəkildə dini ayinlərini icra edirlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov bildirib ki, bəşər tarixinə nəzər saldıqda, dinin insanlar arasında birləşdirici funksiya daşımaqla bərabər, bəzi hallarda dini-etnik zəmində münaqişələrə səbəb olmasına da təsadüf edilir. Bu cür münaqişələr minlərlə insanın öz həyatını itirməsinə və din məhfumu ilə bağlı insanlarda neqativ düşüncənin formalaşmasına səbəb olur. Natiq vurğulayıb ki, müstəqilliyimizin ilk illərində bəzi qeyri-ənənəvi cərəyanların ölkəyə axını müşahidə edilmişdir. Bu təriqətlərin bir qismi ekstremist xarakterli dini konsepsiya ilə çıxış etmişdir: "Lakin insanların öz adət-ənənələri və ənənəvi dini etiqadlarına bağlı olması və dövlətin bu sferaya nəzarəti gücləndirərək preventiv və profilaktik tədbirlər həyata keçirməsi ekstremist qrupların ölkədaxili fəaliyyətini məhdudlaşdırdı".

Daha sonra çıxış edən Təhsil Şöbəsinin müdiri Xudaverdi Piriyev şagirdlərin ümumi dini bilgilərə yiyələnmələrinin əhəmiyyətindən bəhs edib.

***

Konfrans işini fevralın 18-də davam etdirib. Tədbirdə dini icmaların rəhbərləri, din xadimləri, ziyalılar və gənclər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Salyan RİH-in başçısı Sevindik Hətəmov maarifləndirmə məqsədilə keçirilən konfransın əhəmiyyətindən, rayondakı dini durumdan danışıb, qeydiyyatdan keçən dini icmalara fəaliyyət göstərmələri üçün lazımi şərait yaradıldığını bildirib. Milli-mənəvi dəyərlərimizin qorunmasının vacibliyini diqqətə çatdıran RİH başçısı dövlətin bu sahəyə qayğısını xüsusi vurğulayıb.

DQİDK sədri Mübariz Qurbanlı Prezident İlham Əliyevin dövlət-din münasibətlərinə xüsusi həssaslıqla yanaşdığını, dini sahəyə xüsusi diqqət və qayğı göstərdiyini qeyd edərək, xalqımızın zəngin multikulturalizm ənənələrinin, milli-mənəvi dəyərlərinin qorunub saxlanılması, təbliği və təşkili istiqamətində həyata keçirilən tədbirlərdən danışıb. Qeyd edib ki, dini dözümlülük Azərbaycan xalqının milli təfəkküründə özünəməxsus yerə malikdir, ölkə ərazisində müxtəlif dini konfessiyaların nümayəndələri, eyni zamanda fərqli dünyagörüşünə malik insanlar bir-birinə müdaxilə etmədən sərbəst şəkildə yaşayırlar. Azərbaycanın tolerant ənənələrə malik özünəməxsus din modeli bu gün rasizmin, ekstremizmin və terrorun tüğyan etdiyi dünyada bir çox ölkə üçün əvəzsiz nümunədir. Komitə sədri İslam dini haqqında yanlış məlumatların insanların düşüncələrində həqiqətə uyğun olmayan təsəvvür yaratdığını qeyd edib. Bəzi qüvvələrin dini radikalizm, müxtəlif dini xurafatlar vasitəsilə sonuncu səmavi dini gözdən salmaq niyyətlərində olduqlarını bildirib. Mübariz Qurbanlı bu baxımdan ənənəvi İslam dininin təbliğinin prioritet məsələlərdən olduğunu və maarifləndirmə tədbirlərinin mütəmadi şəkildə həyata keçirilməsinin əhəmiyyətini vurğulayıb.

Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi ilə çəkilmiş "Heydər Əliyev: dəyərlərimizin xilaskarı" sənədli filminin də nümayiş olunduğu konfrans mövzu ətrafında müzakirələrlə yekunlaşıb.

# MULTİKULTURALİZM AZƏRBAYCANIN DÖVLƏT SİYASƏTİDİR



Fevralın 20-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) yeni binada fəaliyyətə başlaması ilə bağlı tədbir keçirilib.

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, BBMM-in Himayəçilər Şurasının sədri akademik Kamal Abdullayev, rəsmi dövlət qurumlarının rəhbərləri və nümayəndələri, həmçinin dini və milli icmaların rəhbərləri iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları binada yaradılan şəraitlə tanış olublar.

Daha sonra X Beynəlxalq Multikulturalizm Qış Məktəbinin iştirakçılarının BBMM-in Himayəçilər Şurasının üzvləri və mərkəzin kollektivi ilə görüşü keçirilib.

Görüşdə çıxış edən Kamal Abdullayev deyib ki, Azərbaycanda multikultural mühitin qorunması və inkişafı istiqamətində ardıcıl və məqsədyönlü addımlar atılır. Qeyd edib ki, ölkəmizdə multikulturalizm dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, multikulturalizm Azərbaycanın dövlət siyasəti, xalqımızın həyat tərzidir. Dövlətimiz özünün multikultural siyasətini, tolerant mövqeyini daim qoruyur və inkişaf etdirir. Azərbaycanda multikultural həyat tərzinin qədim tarixi və böyük ənənələri var. Ən qədim zamanlardan ölkəmizdə müxtəlif xalqların nümayəndələri arasında dərin dostluq və qarşılıqlı əməkdaşlıq mühiti formalaşıb.

Daha sonra Himayəçilər Şurasının digər üzvləri çıxış edərək qış məktəbinin önəmindən bəhs ediblər.

Sonda Ziya Şıxlınskinin "Azərbaycan motivləri" sənədli filmi nümayiş etdirilib.

# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞLƏR





Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı fevralın 5-də ABŞ nümayəndə heyətinin üzvləri ilə görüşüb.

Qonaqları salamlayan DQİDK sədri bildirib ki, Azərbaycan dünyəvi dövlət olmasına baxmayaraq, din hər zaman dövlətin xüsusi diqqət yetirdiyi sahələrdən biridir. Ölkəmizdə insanların dini etiqad azadlığının təmin olunması və qorunması üçün hüquqi baza var və hər bir vətəndaşın etiqad azadlığı dövlətin təminatı altındadır. Azərbaycanda multikultural və tolerant mühitin dərin tarixi köklərə malik olduğunu diqqətə çatdıran Mübariz Qurbanlı yəhudilərin ölkəmizdə məskunlaşma tarixi və yəhudi icmalarının Azərbaycandakı fəaliyyətindən danışıb. Qeyd edib ki, dövlət tərəfindən qeydiyyata alınan qeyri-islam dini qurumlarından 8-i yəhudi dini icmasıdır, eyni zamanda ölkəmizdə 7 sinaqoq və bir sıra yəhudi məktəbləri fəaliyyət göstərir. Söhbət zamanı qonaqlara Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində maddi-mədəni və dini irsin talan və məhv edilməsi siyasəti haqqında da ətraflı məlumat verilib.

Görüş və əhatəli məlumat üçün təşəkkürlərini bildirən qonaqlar Azərbaycanın həmişə müxtəlif konfessiyaların, xalqların birgə yaşadığı, tolerantlığın yüksək səviyyədə qorunduğu ölkələr sırasında olmasını yüksək qiymətləndiriblər. Ölkəmizin multikulturalizm ənənələrinin qorunmasına yönəlmiş çoxşaxəli siyasətinin təqdirəlayiq hal olduğunu vurğulayıblar.

Görüşün sonunda Komitə sədri qonaqların suallarını cavablandırıb.

Qeyd edək ki, nümayəndə heyətinin tərkibinə San Diyego Universitetinin professoru Martin Kruminq, Yəhudi Respublikaçılar Alyansının təsisçisi Miç Silberman, "Newsblaze" portalının jurnalisti Nurit Qrinqer və jurnalistlər Leon Veynşteyn, Raul Kontreras daxildi.

***

Fevralın 10-da DQİDK sədri Mübariz Qurbanlı 9 fevral tarixində Azərbaycanda keçirilən növbədənkənar parlament seçkilərini müşahidə etmək məqsədilə ölkəmizə səfər edən bir qrup siyasətçi və jurnalistlərlə görüşlər keçirib.

Görüşlərdə qonaqlara ölkəmizdəki nümunəvi dövlət-din münasibətləri, Konstitusiyada təsbit edilmiş vicdan azadlığı, dinlərarası harmoniya, ayrı-ayrı dinlər və konfessiyalar arasında qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlıq münasibətləri haqqında, eləcə də bu münasibətlərin tənzimlənməsi sahəsində fəaliyyət göstərən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi barədə məlumat verilib.

Görüş iştirakçıları ölkəmizdə keçirilən növbədənkənar parlament seçkilərinin mövcud qanunvericiliyə uyğun olaraq azad, demokratik, şəffaf şəraitdə keçirildiyini bildiriblər. Eyni zamanda, Azərbaycandakı dini rəngarənglik, multikultural və həmrəylik mühitinə heyranlıqlarını dilə gətirən qonaqlar dövlətimizin tarixən gələn tolerant dəyərlərin qorunması, təşviqi istiqamətində həyata keçirdiyi siyasəti təqdir etdiklərini qeyd ediblər.

Sonda qonaqlara Dövlət Komitəsinin ingilis və rus dilində nəşr etdirdiyi, ölkəmizdəki dini tolerantlıq mühiti, dinlərin tarixi və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmindən bəhs edən kitablar təqdim edilib.

Qeyd edək ki, görüşlərdə İsveçin "Nya Tider", Fransanın L'Incorrect, Almaniyanın "Contact Magazine", Polşanın "Mysl Polska", İtaliyanın "Il Sole 24", Belçikanın "EU Observer" nəşrlərinin əməkdaşları, Polşa Parlamentinin üzvü Katarzina Ueberhan, Rusiya Dövlət Dumasından Ramin Qasımov və Dövlət Dumasındakı LDPR fraksiyasının rəhbərinin müşaviri Aleksey Bıçkov, "Dialogue for Europe" QHT-sinin rəhbəri Eli Hadzhieva iştirak ediblər.

***

Fevralın 24-də Amerika Birləşmiş Ştatlarının Beynəlxalq Din Azadlığı Komissiyasının (BDAK) sədr müavinləri Qeyl Mançin, Nadin Menza və Komissiyanın Beynəlxalq hüquq üzrə mütəxəssisi Kristen Laveri, siyasi analitiki Kill Bakken Dövlət Komitəsində olublar. Görüşdə qonaqları ABŞ səfirliyinin siyasi işlər üzrə müşaviri Uilyam Solley müşayiət edib.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı qonaqlara Azərbaycanın dövlət-din münasibətləri modeli, dini durum haqqında ətraflı məlumat verib, multikultural dəyərlərin, dini tolerantlığın cəmiyyətimizin nümunəvi normasına çevrildiyini və bu ənənələrin Azərbaycan dövləti tərəfindən inkişaf etdirildiyini qeyd edib. Bildirib ki, hər kəsin inancına hörmətlə yanaşmaq Azərbaycan xalqının ən əsas prinsiplərindən biridir.

Sonda qonaqlara DQİDK-nın ölkəmizdəki dini tolerantlıq mühiti və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmi haqqında ingilis dilində nəşr etdirdiyi kitablar təqdim edilib.

ABŞ-ın Beynəlxalq Din Azadlığı Komissiyası bütün dünyada dini azadlığı monitorinq edən müstəqil, iki partiyanın dəstəklədiyi, ABŞ hökumətinin federal hökumət komissiyasıdır.

***

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı fevralın 27-də İsrailin Azərbaycana yeni təyin olunmuş səfiri Corc Dik ilə görüşüb.

Səfiri təyinatı münasibətilə təbrik edən Komitə sədri ona diplomatik fəaliyyətində uğurlar arzulayıb. Daha sonra qonağı Azərbaycandakı dinə dövlət qayğısı, dinlərarası dialoq prosesinə verilən önəm, eləcə də DQİDK-nın fəaliyyəti barədə məlumatlandıran Mübariz Qurbanlı dövlət-din münasibətlərinin uğurla tənzimlənməsi istiqamətində son illər görülmüş işlərdən danışıb. Komitə sədri vurğulayıb ki, ölkəmizdə 8 yəhudi icması, 7 sinaqoq, bir sıra yəhudi məktəbləri, həmçinin "Yəhudi Evi", Azərbaycan Yəhudi Qadınlar Assosiasiyası, Yəhudi Mədəniyyət Mərkəzi və bu kimi təsisatlar fəaliyyət göstərir.

Azərbaycanı tolerantlığın və qarşılıqlı hörmətin ən parlaq nümunəsi kimi qiymətləndirən Corc Dik dağ yəhudilərinin kompakt şəkildə yaşadığı Qubadakı Qırmızı qəsəbə ilə yaxından tanış olduğunu bildirib. Azərbaycanın dünyada multikulturalizmin və tolerantlığın ən uğurlu modellərindən birinə sahib ölkə olduğunu söyləyən səfir ölkəmizdə yəhudilərə göstərilən isti münasibət və qarşılıqlı hörmətin onların Azərbaycana rəğbətini və heyranlığını daha da gücləndirdiyini, dövlətlər səviyyəsində əlaqələrin möhkəmlənməsinə təsir etdiyini diqqətə çatdırıb.

# AZƏRBAYCANDA MÜSƏLMANLAR, XRİSTİANLAR VƏ YƏHUDİLƏR ARASINDA HARMONİYA MÖHKƏMLƏNİB



"Azərbaycanda bütün sahələrdə olduğu kimi, din sahəsində də sabitlik mövcuddur". Bunu Trend-ə açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib.

O bildirib ki, Azərbaycan dünyada tolerantlığa, multikultural dəyərlərinə görə nümunəvi bir ölkə kimi tanınır: "Fevralın 22-də cənab Prezident İlham Əliyev və birinci xanım Mehriban xanım Əliyevanın Katolik Kilsəsinin rəhbəri Papa Fransisk ilə görüşündə də Azərbaycanda ictimai-siyasi sabitliyin hökm sürdüyünü, xalqımızın rifah içərisində yaşadığını qeyd edən Papa Fransisk ölkəmizdə dini icmalar arasındakı tolerant münasibətlərə toxunub. Azərbaycanda müxtəlif dini konfessiyalar, dini təriqətlər arasında heç bir qarşıdurma müşahidə olunmur. Baxmayaraq ki, bəzi ölkələrdə biz dini baxımından məzhəblər və təriqətlər arasında qarşıdurmalar, toqquşmalar müşahidə edirik, din adı altında gizlənən radikal, ekstremist qrupların həmin ölkələrdə öz məqsədlərinə çatmaq üçün dini istismar etdiklərini görürük, ancaq Azərbaycanda bu baxımdan sabitlik hökm sürür.

Azərbaycanın təqdim etdiyi tolerantlıq və birgəyaşayış nümunəsi dünyada münaqişələrin və toqquşmaların aradan qaldırılmasına xidmət edən əsas meyarlardan biridir. Eyni zamanda, Azərbaycanda mədəniyyətlərarası dialoq, multikulturalizm, həmçinin müsəlmanlar, xristianlar və yəhudilər arasında harmoniya möhkəmlənib, bütün dini konfessiyaların sərbəst fəaliyyəti üçün lazımi şərait yaradılıb. Ölkəmizə istər xristian və yəhudi, istərsə də müsəlman ölkələrindən gələn nümayəndələr Azərbaycandakı bu sabit vəziyyəti yüksək qiymətləndirirlər".

M.Qurbanlı bildirib ki, Azərbaycan dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqinə də mühüm töhfə verir: "Bilirsiniz ki, ötən il Azərbaycanda Dünya dini liderlərinin ikinci böyük sammiti keçirildi və həmin tədbirdə dünyanın tanınmış dini liderləri iştirak etdilər. Sammitdəki bütün çıxışlarda Azərbaycandakı dini durum yüksək dəyərləndirildi. Bütün bunlar cənab Prezident İlham Əliyevin apardığı uğurlu siyasətin məntiqi nəticəsidir. Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə Azərbaycanın multikultural, tolerant dəyərləri dünya miqyasında tanıdılır. Bildiyiniz kimi, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva mədəniyyətin, o cümlədən Müqəddəs Taxt-Tac təsisatları ilə qarşılıqlı əlaqələrin inkişafına verdiyi töhfələrə görə Vatikanda Papa Cəngavər Ordeninin ən ali dərəcəsinə layiq görülüb. Əlbəttə, bu, eyni zamanda beynəlxalq aləmdə Mehriban xanım Əliyevanın fəaliyyətinə verilən böyük dəyərdir".

# İRANDAKI DİNİ MƏKANLARA ZİYARƏT TƏŞKİL EDƏNLƏRƏ TÖVSİYƏLƏR VERİLİB

"Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Qafqaz Müsəlmanları İdarəsi İranda koronavirus təhlükəsi ilə bağlı turizm şirkətlərinə tövsiyələr verib". Bunu APA-ya açıqlamasında Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib.

O bildirib ki, yalnız Həcc ziyarəti Qafqaz Müsəlmanları İdarəsinin himayəsi altında həyata keçirilir: "Digər müqəddəs yerlərə ziyarətlər turizm şirkətləri tərəfindən təşkil olunur. İran, İraq, Yaxın Şərqdəki müqəddəs dini yerlərə ziyarətlər təşkil edən şirkətlərə tövsiyə etmişik ki, indiki şəraitdə koronavirus təhlükəsini nəzərə alsınlar, həmin yerlərə turist aparılması məsələsinə diqqətlə yanaşsınlar. Bu təhlükəni nəzərə alaraq turist ziyarətlərinin təşkilinə müvəqqəti də olsa, müəyyən məhdudiyyət həyata keçirsinlər".

Komitə sədri qeyd edib ki, hüquqi baxımdan həmin turizm şirkətləri müstəqil fəaliyyət göstərirlər: "Bu şirkətlər yalnız dini ziyarət yerlərinə deyil, digər turistlik yerlərə də turist aparırlar. Ona görə də qanunvericilik baxımından həmin şirkətlərə hər hansı formada qadağa qoymağımız mümkün deyil. Amma bu məsələ ilə bağlı turizm şirkətlərinə tövsiyələr verilib. Turizm şirkətlərininn nümayəndələrini qəbul etmişik və izahat işi aparmışıq. Əminəm ki, vətəndaşlarımız da koronavirus təhlükəsini nəzərə alaraq, gediş-gəlişlə bağlı məsələlərdə daha həssas olacaq, Səhiyyə Nazirliyinin və Ümumdünya Səhiyyə Təşkilatının verdiyi tövsiyələrə əməl edəcəklər".

# AZƏRBAYCANDAKI DİNİ İCMALARIN RƏHBƏRLƏRİ XOCALI FACİƏSİNİN 28-Cİ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR BƏYANAT YAYIBLAR

Azərbaycanda fəaliyyət göstərən dini icmaların rəhbərləri Xocalı faciəsinin 28-ci ildönümü ilə əlaqədar bəyanat yayıblar.

*Bəyanatda deyilir:*

"Biz milyonlarla azərbaycanlının iradəsini ifadə edərək, Azərbaycanın Qarabağ bölgəsində yerləşən Xocalıda törədilmiş soyqırımının 28-ci ildönümü ərəfəsində dinindən, dilindən və milli mənsubiyyətindən asılı olmayaraq, bütün dünya ictimaiyyətinə bir daha müraciət edirik.

Azərbaycan xalqının qan yaddaşında həkk olunmuş tarixi fakt ondan ibarətdir ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni işğalçıları öz havadarlarının köməyi ilə Xocalı şəhərinə qəfil silahlı basqın edib və oranın dinc, silahsız əhalisinə qarşı amansız kütləvi qırğın törədiblər. Azərbaycanın Xocalı şəhərində həmin gecə erməni silahlı quldurları tərəfindən qocalar, uşaqlar, hamilə qadınlar da daxil olmaqla 613 mülki şəxs xüsusi qəddarlıqla qətlə yetirilib. Xocalı şəhəri yerlə yeksan edilib, 150 nəfər itkin düşüb, 1275 nəfər əsir götürülərək ağır işgəncələrə məruz qalıb, vəhşicəsinə qətlə yetirilən dinc sakinlərin meyitlərinin üzərində ağlasığmaz təhqiramiz hərəkətlər edilib.

Beynəlxalq hüquqa görə, genosid sülh və bəşəriyyət əleyhinə yönələn ən ağır cinayətlərdəndir. Mahiyyəti etibarilə, Xocalı faciəsi Holokost, Hernika, Xatın soyqırımları kimi insanlığa qarşı törədilən cinayətlərlə eyni qəbildəndir. Ermənistanın ölkəmizə təcavüzü nəticəsində Azərbaycan xalqı öz doğma torpaqlarında etnik təmizləməyə, fiziki və mənəvi terrora məruz qalıb, erməni ekstremistləri ərazilərmizin 20 faizini işğal edib, bir milyondan artıq azərbaycanlını doğma yurdlarından didərgin salıb, zəbt etdikləri Qarabağ torpaqlarında vandalizm aktları həyata keçirərək tarixi, dini və mədəniyyət abidələrimizi məhv ediblər. Xocalıda məqsədyönlü soyqırımı aktı isə erməni vəhşiliklərinin kulminasiya nöqtəsidir.

İyirmi səkkiz il keçməsinə baxmayaraq, erməni terrorçuları törətdikləri cinayətlərə görə hələ də cəza almayıb, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 4 məlum qətnaməsinin tələbləri bu günədək yerinə yetirilməyib. Azərbaycanın beynəlxalq ictimaiyyətə mütəmadi müraciətlərinə obyektiv yanaşan dünyanın bir sıra dövlətləri və beynəlxalq təşkilatlar Xocalı soyqırımını tanısa da, təəssüf ki, bu dəhşətli cinayətə etinasız yanaşanlar da mövcuddur.

Bu gün dünyada baş verən zorakılıq halları, terrorizm və ekstremizm kimi cinayətlərin təməlində bəzi dövlətlərin, təşkilatların və dini liderlərin problemlərə münasibətindəki ikili standartlar, irqçilik, antisemitizm, ksenofobiya, islamofobiya kimi təhlükəli meyillər dayanır. Bu yanaşma səbəbindən törədilən qətliamlar, o cümlədən Xocalı faciəsi layiqli qiymətini almadıqca, yeni-yeni bəşəri cinayətlərə yol açılır, dünyanın müxtəlif bölgələrində soyqırımıların təkrarlanmasına, terror, ekstremizm, separatçılıq üçün zəmin yaranır. Çox böyük təəssüf doğuran məqamdır ki, bəzi dövlətlər real tarixi soyqırımıların deyil, saxta soyqırımı iddialarının tanınması yönündə səylərini əsirgəmirlər. Beynəlxalq müstəvidə tarixi faktlara əsaslanmayan hadisələrin qərəzli şəkildə siyasiləşdirilərək haqsız iddialara yol açması istiqamətində meyillər bizi narahat edir. Belə təəssübkeşlik heç bir vəchlə qəbul oluna bilməz!

Azərbaycanın üzləşdiyi bu təcavüz və onun nəticəsində bir milyonluq qaçqın və məcburi köçkün probleminə biganə münasibət bəslənməsinin, soydaşlarımızın erməni ekstremistləri tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmasının cavabının verilməməsi nəticəsində erməni tərəfi təxribatlarından nəinki əl çəkmir, öz dədə-baba yurdlarında uyuyan qohumlarının qəbrini ziyarət edən vətəndaşlarımızı əsir, girov götürərək onlara qarşı işgəncələr tətbiq edir, meyitlərin qaytarılması məsələsində belə beynəlxalq konvensiyalara əməl etməkdən boyun qaçırır. Xocalı qətliamında əli olanların tarixin mühakiməsindən boyun qaçıra bilməyəcəkləri məlumdur. Xocalı canilərinin soyqırımı cinayətinə görə beynəlxalq tribunala çıxarılacağı gün uzaqda deyil, İnşallah!

Biz -Azərbaycanda yaşayan müxtəlif konfessiyalardan olan din xadimləri Azərbaycanın dövlət rəhbərinin ölkəmizin ərazi bütövlüyünün bərpası yönündə səylərinin uğurla nəticələnəcəyinə inanır, bunun üçün dualar edirik. Biz Vətənimizin ayrılmaz hissəsi olan Qarabağda torpaqlarımızın azadlığı uğrunda həlak olmuş bütün şəhidlərin, o cümlədən Xocalı şəhidlərinin əziz xatirəsini daim uca tutur, onların ruhlarına Allahdan rəhmət diləyirik. Biz din xadimləri bütün dünya xalqlarına sülh, səadət, əmin-amanlıq və rifah diləyir, Dağlıq Qarabağda beynəlxalq hüquq çərçivəsində sülh yolu ilə ədalətin bərqərar edilməsi, qaçqın və məcburi köçkün soydaşlarımızın öz doğma torpaqlarına qayıtması üçün dualar edir, səylərimizi əsirgəmirik. Bu məramla dünyanın dini liderlərinə, parlamentlərə, beynəlxalq təşkilatlara və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə bir daha müraciət edərək, onları Azərbaycan xalqına qarşı erməni ekstremistlərinin təcavüzünə və vəhşiliklərinə prinsipial siyasi, hüquqi qiymət verməyə, Xocalıda törədilən cinayəti soyqırımı aktı kimi tanımağa çağırırıq.

Qoy, Uca Yaradan hamımıza savab əməllərdə və ədalətli olmaqda yardımçı olsun! Amin!"

# DÖVLƏT KOMİTƏSİNİN RƏHBƏRLİYİ VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİNİ DİNLƏYİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri və müavinləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər.

Vətəndaşların qəbulu sədvəlinə uyğun olaraq fevral ayı ərzində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Salyan rayonundan, Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı Şirvan şəhərindən, sədr müavini Səyavuş Heydərov Hacıqabul rayonundan, sədr müavini Gündüz İsmayılov isə Biləsuvar rayonundan olan vətəndaşları qəbul ediblər.

Qəbullarda, əsasən, dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatlarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciətlərə baxılıb.

Müraciətlər diqqətlə dinlənilib, bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan bir sıra məsələlərin həlli üçün müvafiq tapşırıqlar verilib.

# «MÜASİR REALLIQLAR KONTEKSTİNDƏ DÖVLƏT VƏ DİN»



**Göygöldə**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Göygöl Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə fevralın 10-11-də Göygöl şəhərində "Müasir reallıqlar kontekstində dövlət və din" mövzusunda ikigünlük seminar-müşavirə keçirilib.

Tədbiri giriş sözü ilə açan RİH başçısının birinci müavini Turani Əliyev mövzunun əhəmiyyətindən danışıb, rayondakı dini durum barədə məlumat verib.

Daha sonra çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı deyib ki, dövlət-din münasibətləri hər zaman prioritet istiqamət kimi Prezident İlham Əliyevin diqqət mərkəzində olmaqla yanaşı, həm də bu sahəyə xüsusi qayğı göstərilməkdədir. Onun sözlərinə görə, respublikamızda dini abidələrin qorunması, bərpası və yenidən tikilərək inanclı insanların istifadəsinə verilməsi, dövlət-din münasibətlərinin hüquqi cəhətdən tənzimlənməsi, dini təhsilin keyfiyyət və kəmiyyətcə artırılması və s. işlər bu sahəyə olan diqqətin bariz nümunəsidir. Səyyad Salahlı onu da vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda dinlərarası, mədəniyyətlərarası, sivilizasiyalararası dialoqla bağlı konfranslar, humanitar forumlar, beynəlxalq tədbirlər təşkil olunur.

İkigünlük seminar-müşavirə müzakirələrlə başa çatıb.

**Gəncədə**

Növbəti seminar-müşavirə fevralın 12-13-də DQİDK və Gəncə Şəhər İcra Hakimiyyətinin (ŞİH) birgə təşkilatçılığı ilə Gəncə şəhərində keçirilib.

Tədbiri giriş sözü ilə açan ŞİH başçısının müavini Vəfa Abbasova ölkəmizdə formalaşan nümunəvi dövlət-din münasibətlərinin, dini sahədə sabitliyə nail olunmasının Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu deyib.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı qeyd edib ki, Azərbaycan dövlətinin həyata keçirdiyi din siyasəti beynəlxalq ictimaiyyət müsbət qarşılayır, digər dövlətlərə model kimi tövsiyə edir. Bu da sübut edir ki, ölkə rəhbərliyinin müəyyənləşdirdiyi dövlət-din münasibətlərini tənzimləmə üsulu özünü tam doğrultdur. Səyyad Salahlı vurğulayıb ki, bunu dini əqidəsindən asılı olmayaraq, bütün vətəndaşlarımız gündəlik həyatlarında da hiss edirlər.



Gəncə Dövlət Universitetinin Humanitar fənlər kafedrasının müdiri Gülsüm Fətəliyeva, Azərbaycan Dövlət Aqrar Universitetinin prorektoru Anar Hətəmov, Gəncə Şəhər İH-nin əməkdaşı Həsən Məmmədov və digər tədbir iştirakçıları çıxışlarında mövzunun əhəmiyyətindən danışıblar.

**Şirvanda**

DQİDK və Şirvan ŞİH-in birgə təşkilatçılığı ilə fevralın 19-20-də Şirvan şəhərində "Müasir reallıqlar kontekstində dövlət və din" mövzusunda ikigünlük seminar-müşavirə keçirilib.

Tədbiri giriş sözü ilə açan ŞİH başçısının müavini Elmira Ağayeva dövlətin dindarlara, dini icmalara göstərdiyi diqqət və qayğısından bəhs edib. Şirvan ŞİH başçısının müavini çıxışında bu cür tədbirlərin mütəmadi keçirilməsinin vacibliyinə diqqəti çəkib.

Daha sonra çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı vurğulayıb ki, müasir dövrdə dövlət-din münasibətlərinin xarakteri insan hüquq və azadlıqlarının əsas göstəricisi hesab edilən vicdan azadlığının inkişaf səviyyəsi ilə birbaşa bağlıdır. Dinin siyasiləşməsinin və siyasi alətə çevrilməsinin təhlükəli olduğunu da diqqətə çatdıran natiq qeyd edib ki, müasir dünyada baş verən və minlərlə günahsız insanın ölümünə səbəb olan dini zəmində müharibə və qarşıdurmaların meydana gəlmə səbəblərinin aydınlaşdırılması xüsusi aktuallıq kəsb edir: "Bu məsələdə dinin əsl mahiyyətindən çıxarılaraq siyasi məqsədlərin həyata keçirilmə vasitəsi kimi istifadəsi aparıcı rol oynayır",-deyə DQİDK sədrinin birinci müavini əlavə edib.

Çıxış edən tədbir iştirakçıları mövzu ilə bağlı fikirlərini səsləndiriblər.



**Ağsuda**

Növbəti seminar-müşavirə fevralın 24-25-də DQİDK və Ağsu RİH-in birgə təşkilatçılığı ilə Ağsu rayonunda keçirilib.

Hüquq mühafizə orqanlarının əməkdaşları, din xadimləri, dini icma sədrləri, gənclər və ictimaiyyətin digər nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan RİH-in məsul əməkdaşı Kənan Tacızadə rayondakı dini durum barədə ətraflı məlumat verib.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı vurğulayıb ki, respublikamız unitar, hüquqi, demokratik, dünyəvi dövlətdir və Azərbaycanda dövlət-din münasibətləri yüksək səviyyədədir. Qeyd edib ki, müstəqilliyin ilk illərində olduğu kimi bu gün də ölkədə xaricdən qaynaqlanan bəzi qüvvələr tərəfindən dindən siyasi məqsəd üçün istifadə edilməsi, dini fanatizmin yaranması istiqamətində cəhdlər davam etməkdədir. Lakin bu cür cəhdlərin qarşısı qətiyyətlə alınmaqdadır.

DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbə müdiri vəzifəsini icra edən Elnur Mehdiyev və digər tədbir iştirakçıları mövzu ilə bağlı fikirlərini səsləndiriblər.



# “DİNİ MƏZHƏBÇİLİK MEYİLLƏRİNİN DİNİ TƏHLÜKƏSİZLİYƏ TƏSİRİ”

Fevralın 13-də Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Hacıqabul Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Hacıqabul rayonunda “Dini məzhəbçilik meyillərinin dini təhlükəsizliyə təsiri” mövzusunda seminar-müşavirə keçirilib.



Tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin əməkdaşı, DQİDK və RİH-in, həmçinin Sabirabad, Neftçala, Salyan rayonları və Şirvan şəhərinin icra və hüquq-mühafizə orqanlarının rəhbərliyi, Baş Prokurorluq, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidmətinin vəzifəli şəxsləri iştirak ediblər.

Hacıqabul RİH-in başçısı Rüstəm Xəlilov respublikamızda mövcud olan dövlət-din münasibətləri, dinlərarası dialoq, tolerantlıq sahəsində həyata keçirilən dövlət siyasətindən bəhs edib. Bu istiqamətdə Ümummilli Liderimiz Heydər Əliyev və onun layiqli davamçısı Prezident İlham Əliyevin mühüm xidmətlərinə diqqət çəkib. Dini radikalizmə, məzhəbçiliyə qarşı mübarizə aparılmasının, xüsusilə gənclərin milli-mənəvi dəyərlərəmizə sadiqlik ruhunda tərbiyəsinin zəruriliyi qeyd edilib.

DQİDK sədrinin müavini Səyavuş Heydərov bildirib ki, dünyada dini zəmində, eləcə də məzhəblərərarası ədavət vasitəsilə münaqişə ocaqları yaradılıb və gələcəkdə də yeni ocaqların yaradılması istisna deyil. Dini təhlükəsizlik problemlərinin gələcəkdə dünyada qlobal təhlükəsizlik problemlərinin əsasına çevrilməklə sivilizasiyaların, mədəniyyətlərin və dinlərin toqquşmasına gətirib çıxaracağı prosesinin başlandığını gözardı edə bilmərik. Buna görə də dini təhlükəsizlik bir çox ölkə üçün milli təhlükəsizliyin tərkib hissəsinə çevrilib. Xüsusilə, İslam ölkələri hər gün yeni təhdidlərlə üzləşməkdədir. Təəssüf ki, bəzi dövlətlər islamofobiyaya qarşı mübarizə aparmaq əvəzinə, onun genişlənməsinə şərait yaradırlar ki, bu da gələcəkdə dünyada irqçiliyin, millətçiliyin, radikal meyillərin artmasına səbəb ola bilər. Bununla da həmin ölkələrin milli təhlükəsizlikləri üçün ciddi təhdidlər yarana bilər.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin əməkdaşı Əliheydər Zülfüqarov çıxışında dövlət-din münasibətləri, dinə dövlət qayğısı, eyni zamanda məzhəbçiliyin yaratdığı fəsadlara toxunub. Bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda din sahəsində uğurlu siyasət həyata keçirilir. Etnik tərkibinin zənginliyinə görə respublikamız nadir ölkələrdəndir, Azərbaycanda dini etiqad azadlığı təmin edilir, müxtəlif dini konfessiyalar qarşılıqlı hörmət əsasında fəaliyyət göstərirlər.

Baş Prokurorluğun nümayəndəsi Bəhruz Kərimov, Daxili İşlər Nazirliyinin məsul əməkdaşı Oqtay Tağıyev və Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Hüsnü Məmmədov çıxışlarında milli təhlükəsizliyə əsas təhdidlər, dini radikalizmə qarşı mübarizənin hüquqi əsasları, eləcə də bu istiqamətdə aparılan maarifləndirmə tədbirlərinin önəmindən danışıblar.

Sonda tədbir iştirakçılarının təklif və tövsiyələri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

# DÜNYƏVİ DÖVLƏTDƏ DİN VƏ TƏHSİL MÜNASİBƏTLƏRİ MÜZAKİRƏ OLUNUB



**Biləsuvarda**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Biləsuvar Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə fevralın 18-də “Dini təhsil, dini tərbiyə və dünyəvilik” mövzusunda seminar-treninq keçirilib.

Məktəb direktorları, təlim-tərbiyə işləri üzrə direktor müavinləri, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər, məktəb psixoloqları və rayonun aktiv gənclərinin iştirak etdikləri tədbiri giriş sözü ilə açan Biləsuvar RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Kamil Qurbanlı dini radikalizmin qarşısının alınmasında təhsilin önəmini xüsusi qeyd edib.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov bildirib ki, dini radikalizmə qarşı mübarizənin həyata keçirilməsi müasir dövrdə bir çox ölkənin qarşısında dayanan prioritet məsələlərdən biridir. Onun sözlərinə görə, dini ekstremizm meyilləri bütün bəşəriyyət üçün təhlükə törədən terror təşkilatlarının yaranmasında əsas faktor kimi çıxış edir: “Bu baxımdan dini ekstremizmə qarşı profilaktik və preventiv tədbirlər planı həyata keçirmək böyük əhəmiyyət kəsb edir”.

**Sumqayıtda**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Qubadlı Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə fevralın 21-i və 22-də Sumqayıt şəhərində “Dini təhsil, dini tərbiyə və dünyəvilik” mövzusunda seminar-treninq keçirilib.

Məktəb direktorları və təlim-tərbiyə işləri üzrə direktor müavinləri, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər, məktəb psixoloqları və rayonun aktiv gənclərinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan RİH başçısının müavini Xoşqədəm Alıyeva bildirib ki, dini radikalizm və xurafat bütün cəmiyyət üçün təhlükəlidir. Natiq gənclərin milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunmasının vacibliyini diqqətə çatdırıb.

DQİDK sədrinin müavini Gündüz İsmayılov bildirib ki, dini ekstremizm, radikalizm və xurafat cəmiyyətin iqtisadi, sosial, mədəni və digər sahələrdə inkişafdan geri qalmasına səbəb olur: “Bu sahədə mübarizənin aparılmasında ən səmərəli yol kimi maarifləndirici tədbirlərin həyata keçirilməsi və zərurət olarsa, inzibati metodun tətbiq edilməsidir. Gənclərin yad dini ideologiyaların təsirindən qorunmasında dini maarifləndirmə tədbirləri mühüm rola malikdir.



**Balakəndə**

Analoji tədbir fevralın 26-sı və 27-də Balakən rayonunda keçirilib. Məktəb direktorları və təlim-tərbiyə işləri üzrə direktor müavinləri, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər, məktəb psixoloqları və rayonun aktiv gəncləri iştirakı ilə təşkil olunan seminar-treninqi giriş sözü ilə açan RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Aqil Babayev rayondakı dini durum barədə məlumat verib.



DQİDK-nın sədr müavini Gündüz İsmayılov bildirib ki, ölkəmiz Şərqlə Qərbin, müxtəlif dinlərin qovuşduğu məkanda yerləşir: “Dünyada dini zəmində baş verən proseslər hamıya bəllidir. Bir çox yaxın ölkələrdə müxtəlif cərəyanlar hökm sürür. Ətrafda baş verən proseslərə rəğmən dini sabitliyi qoruyub saxlamaq olduqca çətin və ağırdır. Bu nailiyyət müvafiq qurumların fəaliyyəti ilə yanaşı, xalqımızın malik olduğu yüksək tolerantlıq, Vətənə və dövlətə bağlılığın nəticəsidir”.

DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdiri Sadiq Mirzəyev deyib ki, din ayrı-ayrı fərdlərin həyatında olduğu kimi cəmiyyət və dövlətlərin həyatında da fərqli rol oynayır: “Elə ölkələr də var ki, insanların vicdan azadlığı qismən, yaxud tam şəkildə məhdudlaşdırılır. Bunları nəzərə alaraq, dünyadakı dövlət-din münasibətləri ilə bağlı belə bir təsnifatlandırma apara bilərik: ateist model; teokratik model; rəsmi dini olan model və dünyəvi dövlət modeli. Bu gün din insanların şəxsi həyatının bir hissəsi olmaqdan daha çox ictimai-siyasi proseslərin aktiv hərəkətverici qüvvəsinə çevrilib. Natiq onu da deyib ki, bunun bəzi ölkələrdə siyasi təşkilatların öz məqsədlərini həyata keçirmək üçün dindən istifadə etməsi, Qərbdə islamofobiyanın artması, ultramühafizəkar partiyaların radikal fəaliyyətinin aktiv fazaya keçməsi, İslam dünyasında din adı altında baş verən münaqişələr kimi açıq nümunələri var.

Tədbirlərin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# RƏŞAD MƏCİD: "XXI ƏSRDƏ İNSANLARIN CƏHALƏTƏ, XURAFATA YUVARLANDIĞINI GÖRƏNDƏ HEYRƏT EDİRƏM"

## *"Təəssüf ki, hansısa dini dairələrin sifarişlərini yerinə yetirən "media" yaranıb"*



**- Rəşad müəllim, sizi necə təqdim edək? Yazıçı, jurnalist, "525-ci qəzet"in baş redaktoru, Azərbaycan Yazıçılar Birliyinin katibi, Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü, Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının üzvü..? Bunların hansı Rəşad Məcidin ruhuna tam oturur?**

- Bu sualı müxtəlif yerlərdə, tədbirlərdə, çəkilişlərdə də mənə verirlər. Adətən, oranın ovqatına uyğun cavab verirəm. Tutaq ki, hansısa telekanalda ədəbiyyatla bağlı verilişdə bu sualı verəndə deyirəm ki, Azərbaycan Yazıçılar Birliyinin katibi və ya şair deyin. Mətbuatla bağlı tədbirlərdə deyirəm ki, "525-ci qəzet"in baş redaktoru deyin, gənclərlə bağlı tədbirlərdə gənclərin dostu və ya Əfv Məsələləri Komissiyasının fəaliyyəti ilə bağlı suallar olanda deyirəm, Komissiyanın üzvü kimi təqdim edin. Mənəvi cəhətdən desəm, özüm özümü daha çox "525-ci qəzet"in baş redaktoru və yazıçı-publisist kimi görürəm. Belə desəm, günümü və ayımı paylasam, daha çox o statusda oluram. Ona görə də "525-ci qəzet"in baş redaktoru və yazıçı-publisist tanıtımı mənim həyat ritmimə və həyat bölgümə daha uyğundur.

**- Yaxşı, bəs Rəşad Məcid özünə qarşı necə yazıçıdır: üsyankar, davakar, yoxsa mühafizəkar?**

- Ümumiyyətlə, yazıçılığın mahiyyətində üsyan olmalıdır. İnsan xarakteri də belədir ki, ikili, tərəddüdlü məqamları çox olur. Özümlə daxilən daim dava edirəm. Hansısa məsələ ilə bağlı tam fərqli, təzadlı fikirlərim olur və bu təzad çox vaxt zahirimə də sirayət edir. Bəzən mənimlə yaxın olanlar, iş yoldaşlarım an içində ovqatımdakı dəyişiklikləri görürlər. Bu mənada üsyan, özünə etiraz, özünlə mübarizə olmasa, ümumiyyətlə, yazı, bədii əsər yarana bilməz. Susqunluqda və sakit vəziyyətdə bu mümkün deyil. Məsələn, poeziyanı götürək. Ümumiyyətlə, poeziya insanın anormal halıdır. Bu mənada o cür təlatümlü ovqat içəridən olmasa, nə şeir, nə nəsr yazmaq olar.

**- Məsələn, özünüzdə ən çox nəyə üsyan edirsiniz?**

- Ola bilsin ki, o da müxtəlif məqamlarda baş verir. Bəzən öz xarakterimdəki hansısa məqamlara üsyan edirəm. Məsələn, fikirləşirəm ki, bəlkə həddindən çox ürəyiyumşaq, səmimi oluram. Bax, bunlar mənə həyatımda mane olur. Amma sonra fikirləşirəm, insan xarakterini dəyişmək mümkün deyil ki, qısa müddətdə xarakterimdə nəyisə korrektə edim. Əslində, məndəki bu xarakter - gözlənilməzliklə dolu, bayaq dediyim kimi, təzadlı, içəridən coşmaq, birdən üsyankarlıq - mənə həyatımda bəlkə ziyan da vurub, ancaq hesab edirəm ki, daha çox xeyir verib. İnsanların gözündə, onların təsəvvüründə məhz qəfildən kükrəyən, coşan, qəfildən hansısa sərhədləri dağıdan, məmur çərçivəsinə sığmayan fikirlər deyən Rəşad Məcid obrazı daha çox yayğındır.

**- *İlahi, sən mənim yaddaşımı sil,***
***İlahi, sən mənə bir sovqat eylə.***
***Bilgisayar kimi, telefon kimi,***
***Yaddaşı təzələ, ya format eylə.***

**Xarakterinizin sadaladığınız elementləri bu misralarda da açıq şəkildə görünür...**

- Bu yaxınlarda "Qələmsiz yazılanlar" kitabım çıxıb. Ayrı-ayrı vaxtlarda sosial şəbəkələrdə yazdığım statusların toplusundan ibarətdir. Orada da yazmışdım ki, unutmaq yaşamağa kömək edir. Unutmasan, yaşamaq çətin olur. Özümü də müsahibələrimin birində məğlub adam adlandırmışam. Keçmiş zədələrlə doludur. Xüsusən, tez-tez dediyim bir məsələni təkrarlamaq istəyirəm. Doğulduğum rayon, kənd, sevdiyim şəhər, ilk dərsə getdiyim orta məktəb - hamısı işğal altındadır. O illəri, uşaqlığımı, o yerləri fikirləşəndə sanki məni tok vurur, əziyyət çəkirəm. Və bu mənada ondan qaçıram, unutmaq istəyirəm. O, mənim məğlubluğumu, məyusluğumu yadıma salır. Zəifliyimi, gücsüzlüyümü xatırladır mənə. Bu mənada unutmaq istəyirəm. O şeirdə də məhz o hissiyyat təsvir olunub.

**- Bu misralar həmin ovqatın məhsuludur, deməк ki?**

- Yox, bu, sevgi ilə bağlı şeirdəndir. Amma orada da həmin şeydir. Tutaq ki, sən acı çəkirsənsə, o acı ilə uzun müddət yaşamaq olmur. Bəzi məqamlarda ağrı-acı şairə, yazıçıya yaradıcılıq üçün impuls verir, yaradıcılığa sövq edir. Amma sonra bu əzab-əziyyət səni çox yorur və unutmağa məcbursan. Unutmasan, məhv olacaqsan.

**- Amma deyəsən, o əziyyətlər sizə həm də zövq verir. Çünki bir şeirinizdə deyirsiniz ki, yenidən qaytarsan bu dünyaya, yenə onu mənə qismət eylə.**

- Dediyim həmin təzadlı baxışlar, düşüncələrdir. Həm bu dərdin içindən qopmağa, onu unutmağa çalışırsan, həm də o dərdin içində də özünü daha dolğun, daha təkmil, daha ilahi hiss edirsən. Özünü tapırsan. Ona görə də elə ovqat olur ki, orada qalmağı daha üstün tutursan. Amma bir insan, bioloji varlıq kimi bəzən dözə bilmirsən və o məqamlarda qaçmağa çalışırsan.

**- Bu üsyankarlıq hansı həddə qədər yüksələ bilir? Məsələn, olubmu ki, hansısa bir yazınıza, şeirinizə baxıb demisiniz ki, heç belə də şeir ola-a-a-r? Yəni, özünüzə bu qədər radikal yanaşdığınız məqamlar olubmu?**

- Olub, əlbəttə, olub. O şeirlər ki, məsələn, elə həmin ovqatlarda da, anormal vəziyyətdə və yaxud əzabın hansısa qatında yazılıbsa, sonradan ona baxıb, güldüyüm vaxtlar olub - elə o yazıya da, şeirə də, hətta o ovqata da. Fikirləşmişəm, gör nə halda olmuşam ki, belə şeirlər, belə sözlər yazmışam. Dediyim kimi, insanın o ovqatı həmişə olmur. Çox vaxt da həmin hal keçəndən sonra yaşadıqlarına normal insan gözü ilə baxanda yazdıqların təbəssüm doğurur. Hansısa bir şeirimdə də var,

*Sevdaya tutulub bu cavan oğlan,*
*Oturub ağlayır, durub ağlayır,*

Sevgidən ağlayan bu cavan oğlan üçün sonradan bu sevgi, bu ağlamaq gülməli görünür.

**- Deyirlər ki, hər bir əsər yazarın övladıdır. Bu təsvirdən yanaşsaq, doğulmadan öldürdüyünüz neçə "övladınız" var?**

- Çoxdur. Mənim yaşayış tempim, qaçaraq həyatım, tədbirlər o qədər şeirlərimi, uzun illərdən bəri beynimdə fırlanan nəsr əsərlərimi ortaya çıxarmağa mane olub ki... Amma son illər sosial şəbəkələr mənim xilasım oldu. "Qələmsiz yazılanlar"ın ideyası ortaya çıxandan sonra daha çox statuslar, status-esselər yazmağa başladım. Həmin statuslar, elə bil, yazılmamış əsərlərimin qırıntılarıdır. Onları bir kitabda topladım. İndi də artıq vərdişə çevrilib. Parisdə yaşayan dostum Şahin Sinariya "Qələmsiz yazılanlar"ı oxuduqca deyir ki, bu statusların bəzisində bir romanın mövzusu var. Əlbəttə, rahat vaxtım olsa, onları daha təkmil hekayəyə, povestə, romana, şeirə çevirə bilərdim. Amma bilirəm ki, uçub gedəcək, qalmayacaq, ona görə də bu statusları yazıram və reaksiya doğurur. Lap gənc yaşlarımda da edərdim bunu. "Kibrit qutusuna yazılan şeir" adlı bir şeirim var. Şeir ovqatı gələndə bilmirsən ki, unutmamaq üçün hara yazasan. Yadımdadır, misraları kibrit qutusunun üstünə yazırdım ki, əsas motivi unutmayım. Bu mənada həmin statuslar da, bir növ, böyük əsərlərin məğzləri, tezisləridir.

**- Özünüz də etiraf etmisiniz ki, SSRİ dövründə Yazıçılar Birliyi ideoloji qurum idi. Bəs bu gün necə?**

- Bu gün ideoloji qurum kimi fəaliyyət göstərməyə nə ehtiyac var, nə də tələb. Sovet dövründə Yazıçılar Birliyi sovet ideologiyasının əsas daşıyıcılarından idi. Əsərlərin əksəriyyəti partiyanın ideologiyasına və tapşırığına əsaslanırdı. Yazıçılar da ölkənin yüksək statuslu insanları idilər, maddi cəhətdən yaxşı təmin olunurdular. Hətta deyirlər ki, ötən əsrin 50-ci, yoxsa 60-cı illərinin səhiyyə naziri Yazıçılar Birliyinin sədri Mirzə İbrahimovdan borc pul alırdı. İndi isə Yazıçılar Birliyi əvvəlki kimi nə ideologiyanın tərkib hissəsidir, nə də yazıçıların böyük maddi imkanları var, çoxu kasıb təbəqənin üzvüdür. Ancaq yazıçıya hörmət, yazıçıdan, yazıçı sözündən çox şey ummaq yenə də davam edir. Bəzən yazıçıdan elə şeylər, elə qəhrəmanlıqlar tələb olunur ki... Təəssüf ki, bütün yazıçılardan bunları ummaq mümkünsüzdür və yazıçıların o gücü yoxdur. İndi Yazıçılar Birliyi sadəcə, peşəkar yazıçıların birləşdiyi təşkilatdır.

**- Ancaq, məsələn, Qarabağ mövzusunda yazanları, kitabları görmək istəmək və ummaq bizim haqqımızdır. Və hesab edirəm ki, bu da ideoloji məsələdir.**

- Düzdür. Ancaq ideologiyanın tələb etdiyi mövzular ortaya çıxanda qrafomanlar, istedadsız adamlar başlayırlar zəif, primitiv, şablon əsərlər yazmağa. Bu isə həmin ideyaların dəyərini azaldır. Qarabağ mövzusunda, müharibə mövzusunda, torpaqlarımızın azad olunması uğrunda qəhrəmanlıqlar göstərmiş əsgərlərimiz haqqında elə əsərlər yazılmalıdır və o əsərlər elə bədii gücdə olmalıdır ki, insanların hissiyatına toxunsun, onları inandırsın, onları tərpətsin. Yox, əgər yazılanlar boş söz yığını, yalançı hay-küy, pafos olanda mətləbə, məğzdəki ideyalara xələl gəlir. Ona görə də mən, ümumiyyətlə, sifarişli, məcburiyyətdən irəli gələn ədəbiyyatı sevmirəm. Bir çoxu bu mövzuda güclü əsərlərin olmamasının səbəbini belə izah edir ki, müharibə hələ bitməyib, biz məğlub olmuşuq və bitməyən müharibənin, məğlub xalqın əsərləri yazılmaz, bu, gələcəyin işidir.

**- Siz təkcə sifarişli ədəbiyyatı yox, mən bilən, həm də detektiv ədəbiyyatını sevmirsiniz.**

- Müsahibələrimin birində demişdim ki, detektivi ciddi ədəbiyyat saymıram. Bundan sonra mətbuatda ciddi müzakirələr açıldı. Hətta bizim 36 milyon tirajlı kitablar müəllifi, hörmətli Çingiz Abdullayev məndən incidi. Hər gün onun haqqında feysbukda yazılan tərifləri mənə göndərir (gülür). Amma o sözümü jurnalistlər belə qabartdılar. İndi də o fikirdəyəm. Mən bir neçə detektiv əsər oxumuşam, o cümlədən Çingiz müəllimin əsərlərini. Amma onlar mənim ürəyimə yatan əsərlər deyil. Oxuyursan, maraqlıdır, ancaq bitəndən sonra yadında heç bir süjet, məna, məğz, xarakter, obraz qalmır. Oxucuya çatdırmaq istənilən alt qat, ideya olmur. Mən bu tip ədəbiyyatı sevmirəm. O sözümdən sonra qəzetlər yazmışdılar ki, Rəşad Məcid Çingiz Abdullayevin yazdıqlarını ədəbiyyat saymır. Bəziləri daha irəli gedərək Çingiz Abdullayevə sual vermişdilər ki, Rəşad Məcid sizi yazıçı saymır. Ümumiyyətlə, "yazıçı saymır" ifadəsi düzgün deyildi, çünki Çingiz Abdullayev 100-dən çox kitab yazıb və elə təkcə buna görə onun haqqında "yazıçı deyil" sözünü necə deyə bilərəm? Sadəcə, mənim yazıçım deyil, onun yazdıqları mənim zövqümü oxşayan yazılar deyil. Ümumilikdə detektiv ədəbiyyatı mənim sevdiyim ədəbiyyat deyil və ümumiyyətlə, detektivin bədii ədəbiyyat olub-olmaması yüz ildən artıqdır ki, müzakirə mövzusudur. Mənim xoşladığım ədəbiyyat başqa ədəbiyyatdır. Çingiz müəllimlə də artıq barışmışıq. Böyük ədəbiyyata iddialıdır, ancaq onu tarix göstərəcək ki, Çingiz Abdullayevin əsərləri tarixdə yaşayacaq, ya yox.

**- Bəlkə ona görə bəyənmirsiniz ki, bir çoxu kommersiya tipli ədəbiyyatın məhsuludur?**

- O tipli ədəbiyyat, əlbəttə bazara hesablanır. Bir dəfə Elxan Elatlıdan soruşdum, sən bu kitabı yazmısan, olmazdımı burda hər hansı

davamı səh. 9

# RƏŞAD MƏCİD: “XXI ƏSRDƏ İNSANLARIN CƏHALƏTƏ, XURAFATA YUVARLANDIĞINI GÖRƏNDƏ HEYRƏT EDİRƏM”

## *“Təəssüf ki, hansısa dini dairələrin sifarişlərini yerinə yetirən “media” yaranıb”*

əvvəli səh. 8

alt qat olaydı, mənə olaydı ki, bu qalın romanı yazdığın vaxta sonradan heyfin gəlməyə. Cavab verdi ki, sizin dediyiniz kimi yazsaq, bir əsəri yazmaq üçün iki il vaxt lazım olar, amma mən bunu 3-4 aya bitirirəm, 10 min tirajla bazara çıxır və pul qazanıram. Açıq şəkildə deyir ki, kommersiya marağı var, dərin ədəbiyyat mətləbləri yoxdur. Bazara işləyən ədəbiyyat bütün dünyada var. Mənim sevdiyim ədəbiyyat deyil, bəlkə aşağı zövqlü, yaxud vaxt keçirmək istəyən insanların oxuduğu kitablardır.

**- Cəmiyyətdə gənclərin dostu kimi tanınırsınız və ədəbiyyatımızda gənclər ilə yaşlı nəsil arasında fikir müxtəlifliyini yaxından görürsünüz. Yəqin ki, bu “atalar və oğullar” problemi sizin gəncliyinizdə də var idi.**

- Bütün dövrlərdə olub. Hətta 2000 il bundan əvvəl bir filosof deyib ki, “indiki gənclər xarab olublar, öz atalarının əleyhinə çıxırlar”. Ümumiyyətlə, gənc ikən dünyanı dəyişdirmək istəyi, üsyankar olmaq, bəyənməməzlik – bunlar təbiidir və mən bunu qəbul edirəm. Amma bir məşhur sözü də tez-tez misal çəkirəm: 20 yaşında inqilabçı olmayanın ürəyi, 40 yaşında inqilabçı olanın isə ağlı yoxdur. Hə, 20 yaşında üsyan edib dünyanı dəyişməyə çalışmalısan, amma 40 yaşa gəlib çatanda görürsən ki, bu dünya düzələn deyil, elə həmin dünyadır və sən də sıradan bir insansan, dünyanı dəyişdirə bilmirsən. Bu mənada gənclərin arasında eləsi olur ki, dili də var, dilçəyi də. Məsələn, nəyəsə etiraz edir, amma yazısında da istedad qığılcımları özünü göstərir. Məni ən çox məyus edən o adamdır ki, istedadı, bir misrası, bir bədii cümləsi yoxdur, heç düzəməlli 3-5 kitab da oxumayıb, amma iddiası yerə-göyə sığmır... Belə adamları görəndə məni xof bürüyür, hirslənirəm və bəzən də kəskin cavablar verirəm. Gənclərdə istedad əlamətlərini görmək və hiss etmək bəlkə də artıq mənim xarakterimə, vərdişimə çevrilib. O dəqiqə hiss edirəm və həmişə də kömək edirəm, çalışıram ki, həmin adama daha çox imkanlar açım. Bəzən yaşlı yazıçılarımız mənə deyirlər ki, gənclərə o qədər dəstək verirsən, kaş, “xarab” olmayalar. Mən də fikirləşirəm ki, niyə “xarab” olmalıdırlar, axı? Ancaq zaman göstərir ki, bəzən həddindən artıq tərifləyəndə “ulduz xəstəliyi”nə tutulurlar, başqa arzulara qapılırlar. Nə qədər məyus olsam da, bütün uğursuzluqlarını məndə görsələr də, mən yenə də istedadlı adamlara kömək edirəm və bunu heç vaxt danmıram. İstedadı etiraf etməkdən zövq alıram. Bir azərbaycanlı gəncdə istedad qığılcımları görmək mənim üçün çox xoşdur.

**- Ümumiyyətlə, kənardan belə görünür ki, gənc nəslin tənqidləri sanki Yazıçılar Birliyinə deyil, Rəşad Məcidə yönəlir, bütün tənqidlərə özünüz cavab verirsiniz. Nədən irəli gəlir bu? Xarakterinizdəki çılğınlıqdan, yoxsa özünüzü gənclərə daha yaxın hiss etməyinizdən?**

- Bir çox məsələyə mən cavab verirəm, xüsusilə də gənclərlə bağlı məsələlərə. Həm gənclərə yaxın, həm də mətbuata açıq olduğumdan və prosesləri bilməyimdən irəli gələrək ortaya belə mənzərə çıxır. Yazıçılar Birliyində elə həmkarlarım var ki, mətbuatda barələrində nəsə yazılan kimi telefonlarını bağlayıb üç gün cavab vermirlər. Mən isə mediadan heç vaxt qaçmamışam, problemin üstünə gedirəm və həll etməyə çalışıram. Ona görə ki, içəridən özümü haqlı sayıram. Məsələn, cavan uşaqlar Anar haqqında yazmışdılar, iddia edirdilər ki, sədr olacaqlar. Yaxud deyirdilər ki, Anar müəllim bizə vəsiqə verib, ancaq bizi tanımır. Onlara cavab vermişdim ki, Anar müəllimin tanıması üçün siz gərək uzun illər ədəbi fəaliyyətlə məşğul olasınız, sanballı əsərlərlə diqqətini çəkəsiniz. Anar müəllim yüzlərlə gəncə Yazıçılar Birliyinin vəsiqəsini verib, onun hamısını yadında saxlaya bilməz axı. Şəxsən mənim Anara münasibətim Yazıçılar Birliyinə gələndən əvvəl də çox yaxşı olub, dünyagörüşümün formalaşmasında onun əsərləri böyük rol oynayıb, həmişə onun əsərlərini gənclər arasında təbliğ etmişəm. Bugünlərdə onun “Yaşamaq haqqı” traktatı çap olunacaq. Son illərdə Anarın ən çox sevdiyim əsəridir və çox arzulayıram ki, Azərbaycanda bütün evlərdə o kitab olsun. Çünki bu kitabda Azərbaycan tarixi haqqında çox aydın düşüncəli ziyalımızın fikirləri əks olunub. Orada elə tarixi faktlar var ki, hamımız oxumalı və bilməliyik.

**- Bir az da din haqqında danışaq. Müsahibələrinizin birində etiraf etmisiniz ki, seyid nəslindənəm, seyidliyim var və cəddimə inanıram. Möcüzələrə, övliyalara inanırsınızmı?**

- Düzdür, atam elə dindar olmayıb, məmur, ziyalı olub. Amma babam – Mir Hacib Ağanın Ağcabədidəki evi ocaq sayılır. 10 yaşımadək onun yanında böyüyüşəm və din xadimlərinin içərisində olmuşam. Mir Hacib Ağa rəhmətə gedəndə yas mərasiminə bəlkə də, 50-60 seyid gəlmişdi, onlar növhə deyirdilər. Sonralar bəzi adamların növhənin nə olduğunu bilmədiyini eşidəndə təəccüblənmişdim. Bizim ev həqiqi din xadimləri ilə dolu olurdu. Babamın da çox gözəl səsi var idi, vaxtilə Xalq artisti Yaqub Məmmədovla dost olub. Cavan vaxtlarında bir yerdə yas mərasimlərində növhə deyiblər. Ağcabədidə o vaxt bu adət məşhur idi. Babamın səsi, uşaqlıqdan din ilə bağlı mənə danışdığı əhvalatlar, hətta yalançı dindarlara və mollalara qarşı sarkazm dolu lətifələri dünyagörüşümə təsir edib. Bir tərəfdən dinə və ilahi qüvvəyə, cəddə inam, digər tərəfdən dindən sui-istifadə edənlərə sərt münasibət bəlkə də, elə uşaqlığımdan formalaşıb. Babamın da atası Laçın rayonunun Seyidlər kəndindəndir, onun qəbri də həmin kənddə idi, 1991-ci ildə atam onun qəbrini də düzəltdirmişdi. Bu mənada hiss edirəm ki, məndə genetik olaraq seyidlik var. Bununla bağlı bir neçə dəfə maraqlı məqam olub. Məsələn, 2009-cu il iyulun 23-də - Ağdamın işğalının ildönümü günü “Qarabağ” futbol klubu avrokuboklarda Norveçin “Rosenburq” klubu ilə qarşılaşırdı və ilk dəfə növbəti mərhələyə keçmək üçün şansı var idi. Qarabağın adının bu cür böyük beynəlxalq arenada səslənməsini çox istəyirdim. Bunun həm də bir siyasi mənası var. O zaman hamıya 10-15 gün qabaqdan təbliğ elədim ki, hamı stadiona gəlsin, stadionda ruh olsun. Oyundan bir gün əvvəl futbolçulara ruh vermək üçün yazıçı Aqil Abbasla stadiona getdik. Meydana birinci norveçli futbolçular çıxmışdı, gördüm, hamısı ucaboy, yekəpər. Sonra “Qarabağ”ın oyunçuları çıxdı meydana. Baxdım ki, bəstəboydurlar, dedim, bunlar onlara necə qalib gələcək? Amma ruh verməliyik axı, Aqil özünəməxsus Qarabağ şivəsi ilə danışdı. Sonra mən dedim ki, sabah stadion dolacaq, oyun da Ağdamın işğalı gününə təsadüf edir, belə bir gündə azarkeşlərdən sizə güclü dəstək gələcək və adaşım Rəşad Sadıqov bir qol vuracaq, qalib gələcəyik. O sözümü orada olan mətbuat nümayəndələri qəzetlərdə, saytlarda yazdılar. Oyun günü artıq qəzetlərdə çıxmışdı ki, Rəşad Məcid deyir, Rəşad Sadıqov bir qol vuracaq və biz qalib gələcəyik. Dostlarla axşam futbola getdik. Birinci hissənin axırına yaxın Rəşad Sadıqov cərimə zərbəsindən qol vurdu. İkinci hissədə ancaq Allaha yalvardım ki, başqa qol olmasın, hesab dəyişməsin. Sonra məndən soruşdular ki, hərdən futbolla bağlı proqnoz verirsən, bu da o proqnozlardan idi? Dedim yox, bu dəfə proqnoz deyildi, saf, səmimi qəlblə Allaha dua etmişdim ki, belə olsun. Oyundan sonra Rəşad demişdi ki, özüm də gözləmirdim ki, o top qol olar. “Rosenburq”un qapıçısı da demişdi ki, o top qol olmayacaqdı, onu külək saldı qapıya. Amma mən sirri bilirdim, onu ora salanın kim, nə olduğunu bilirdim. Bax, həmin o cədd və ilahi güc ki, ona inanıram. Məncə, insan bir şeyi dəlicəsinə istəyirsə, o olur. Mənim bir kitabımın adı da belədir: “Dəlicəsinə”. Bir adam istədiyi bir şeyə çatmırsa, deməli dəlicəsinə istəməyib. Həyatda inandığım ən böyük tezislərdən biridir.

**- Rəşad müəllim, uşaqlığınızdan danışdınız. O dövrdəki dini yaşam tərzi ilə bugünkü arasında nə kimi fərq və ya oxşarlıqlar var?**

- Onda sovet dövrü idi, qapalı sistem idi. Din ilə bağlı məhdudiyyətlər var idi. Biz Ağdamda yaşayırdıq, məscidə Aşura günləri gəlirdilər və dini ayinlər yerinə yetirirdilər. Dediyim kimi, babam da din xadimi idi, namaz qılırdı. O mənada mən dinə basqını o dərəcədə də hiss etməmişəm. Sonralar gördüm ki, elə rayonlar var, heç din xadimi yoxdur. Amma mən yaşadığım yerdə İslam dininə hörmət və ehtiram görmüşəm. Hərdən deyirəm ki, babalarım İslam dininə 1400 il xidmət göstəriblər, mən bir az loyal qalsam da olar. Hesab edirəm ki, o dövrdə inam, etiqad daha səmimi idi. İndiki dövrdə mənfəətçilik, dəbə uymaq var. Yalançı din xadimi kimi özünü göstərmək indi daha çoxdur. Keçmişdə Kommunist Partiyasının üzvü olmaq vacib və lazım idi, indi də bir çoxu bu statusu “hacı” ilə əvəz edir. Həccə getsinlər, hacı olsunlar. Mən özüm də bir dəfə Məkkədə olmuşam. Hətta rəhmətlik Vasim Məmmədəliyev bunu biləndə demişdi ki, sən ümrə ziyarəti etmisən, yarıhacı sayılırsan. Orada da bir qəribə hadisə baş vermişdi. Deməli, Azərbaycandan, Mərkəzi Asiya ölkələrindən jurnalistlər oradakı iqtisadi konfransda iştirak etməli idik. Jurnalist Ağanisə Sultanova da bizim heyətdə idi. Ağanisə xanım oradakı səfirlərə və digər yetkililərə deyirdi ki, Məkkəyə getməyəcəyik? Halbuki iqtisadi konfransa getmişdik və bizi zavodlara, fabriklərə aparırdılar. Həmin konfransa da ayrı-ayrı ölkələrdən nazirlər gəlməli idi. Ağanisə xanımın israrlı “Məkkəyə getməyəcəyik?” suallarına bir az hirsləndim, ona iradımı bildirdim ki, yaxşı da, imkan olsa, gedərik, yəqin. O da dedi ki, yox bura gəlmişiksə, Məkkəni ziyarət edək, bizim nəyimizə lazımdır zavod-fabriklərdə gəzmək? Bir gün səhər yuxudan oyananda gördüm ki, səfirlər nəsə pıçıldaşırlar. Yaxınlaşdım ki, nə olub. Dedilər, ola bilsin ki, Ağanisə xanımın arzusu reallaşsın. Dedim necə? Dedilər, konfrans baş tutmayacaq, ona görə də bu axşam sizi Məkkəyə aparacağıq. Gecə təyyarə ilə getdik Məkkəyə, ziyarət etdik və qayıtdıq. Ağanisənin duası mənə Mirzə Fətəli Axundovun “Müsyö Jordan və Dərviş Məstəli Şah” əsərini xatırlatdı, bu barədə “Qələmsiz yazılanlar”da da yazmışam. Ağanisə xanımın duası həmin beynəlxalq iqtisadi konfransı təxirə saldı və biz Məkkəyə gedə bildik (gülür).

**- Rəşad müəllim, dini radikalizmin Azərbaycana təsirlərini yəqin ki, siz də hiss eləyirsiniz. Bir ziyalı kimi, onunla mübarizə üçün təklifləriniz varmı?**

- Hiss edirəm, əlbəttə. Ara-sıra da mövqeyimi bildirirəm, ümumiyyətlə, bəzən sərt danışıram bu barədə. Mən xurafatın, cəhalətin əleyhinəyəm və görəndə ki, XXI əsrdə, bu boyda informasiyanın içində, məlumatların asanlıqla əldə edildiyi bir vaxtda insanlar cəhalətə, xurafata yuvarlanırlar - heyrət edirəm. Bizim mediamız cəhalətə qarşı mübarizə aparır. Təəssüf ki, hansısa dini dairələrin sifarişlərini yerinə yetirən “media” yaranıb. Jurnalist bu cür radikal dini dairələrin sifarişlərini yerinə yetirməməlidir, həqiqətin yanında olmalıdır. Bu məsələlərin də kökündə savadsızlıq durur. Orta məktəbdə dünyəvi təhsildə vaxtilə olan qüsurlar gətirib ona çıxarır ki, “din adamları” həmin insanlara daha çox təsir göstərə bilir, nəinki bizim dünyəvi təhsil sistemi. Bu mənada təhsilimizi gücləndirməliyik, gənclərin təhsildən yayınmasına imkan verməməliyik. Son illərdə də görülən işlər, Azərbaycan gəncləri üçün yaradılan şərait imkan verir ki, bəzən maddi, bəzən savadsızlıqdan yad dini təmayüllərə meyillər aradan qalxsın.

**- 2003-cü ildə “10 sentyabr” adlı hekayə yazmışdınız, deyirdiniz ki, bununla ABŞ-ın İraqa hücumunun qarşısını almaq istəyirsiniz. Don Kixotluq etmək istəyirdiniz?**

- Don Kixotluq da demək olar. O hekayə 20-dən çox dilə tərcümə olundu, bir çox ölkədə çap edildi. Doğrudan da, ABŞ-ın İraqa hücumu ərəfəsində yazdığım o hekayə ilə müharibənin qarşısını alacağımı düşünürdüm. Ümumiyyətlə, mən ədəbiyyata elə baxıram, hesab edirəm ki, ədəbiyyat müharibələrin qarşısını almaq, şərə qarşı müqavimət göstərmək gücündədir.

Müsahibəni hazırladılar:
**Saleh Arslan**
**Ramil Hikmət**

# NOVRUZ GƏLİR...

Taleyimizdə təmənnasız bəxş olunan elə günlər və bayramlar var ki, onların təntənəsinə daxilən, ruhən həmişə hazır oluruq. Belə qədim və milli bayramlardan biri də Novruzdur. Əsrlərin sınağından çıxmış mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadan bu bayramdakı məram təzə ili, baharın ilk gününü qarşılamaqdan ibarətdir. Gecə ilə gündüzün bərabərləşdiyi gün qeyd olunan Novruz təbiətin canlanması, torpağın oyanması ilə müjdələyir bizi...

Novruz inancının təməlini dörd ünsür - su, od, yel və torpaq təşkil edir. Ona görə də xalqımız bu bayrama təntənəli şəkildə vaxtından bir ay əvvəl hazırlaşır, hər həftənin çərşənbə günlərini ardıcıllıqla "Su", "Od", "Yel" və "Torpaq" çərşənbələri adı ilə qeyd edir.

## Su çərşənbəsi

Xalqımızın təmtəraqlı şəkildə qeyd etdiyi çərşənbələrin birincisi Su çərşənbəsidir. Bu çərşənbə qışın arxada qalmasının göstəricisidir. Çünki "kiçik çillə" öz yerini "Boz Ay"a verir və havalar, böyüklərimiz demişkən, "ağara-bozara" düzəlməyə başlayır.

Su çərşənbəsində dan yeri söküləndə insanlar çaya gedir, axar suda əllərini, üzlərini yuyur, suyun üzərindən hoppanaraq "ağırlığım-uğurluğum suya" - deyib, xəstəliklərin, mənfi enerjinin suya düşəcəyinə və yeni ildə sağlam olacaqlarına inanırlar. Bu çərşənbədə qızların su ilə fala baxmaları qədim inanclardandır. Onlar üzüklərini çıxararaq su dolu qaba atır, üstünü örtdükdən sonra bayatı deməyə başlayırlar. Hər bayatının sonunda qabın içinə baxmadan bir üzük çıxarır və sahibinə verirlər. Digər inanca görə, nişanlı qızlar üzüklərini saçlarından qopardıqları telin ucuna bağlayıb, onu su dolu qaba salıb-çıxarırlar. Üzük qabın kənarlarına neçə dəfə dəyib səs çıxarsa, sahibi həmin yaşda evlənəcəkdir.

Su çərşənbəsində lal axan suyun üzərindən keçmək uğursuzluq əlaməti kimi qəbul edilir. Xonçada mütləq bulaqdan, quyudan, kəhrizdən gətirilmiş pak, təmiz su olmalıdır.

## Od çərşənbəsi

Novruzun əsas rəmzlərindən olan od uzun və soyuq qışdan sonra xalqın gözlədiyi istiliyi təmsil edir. Xalq arasında "Üskü çərşənbəsi" də adlandırılan Od çərşənbəsi qədim dini baxışlarla bağlı olub, odu qoruyub saxlamaq inancı ilə əlaqədardır. Qədim dövrlərdə belə bir təsəvvür olmuşdur ki, insanlar Günəşi, odu nə qədər əzizləyib oxşasalar, təbiət də o qədər tez isinər və oyanar.

Bu çərşənbədə ocaq çatıb tonqal qalayır və üstündən atılaraq "Ağırlığım, uğurluğum odda yansın" - deyirlər. Bununla da ötən ildə baş verən uğursuzluqların, sanki odda yandırıldığına inanırlar.

Od çərşənbəsində baharın gəlişini qeyd etmək məqsədilə "Kos-kosa" kimi ənənəvi xalq oyunu keçirilir. Bunun mənası qışın qovulması, yazın isə alqışla qarşılanmasıdır. Oyunda ömrünü başa vurmuş qışın simvolik obrazı Kosa, yazın rəmzi isə Keçəldir. Burada Kosa ilə Keçəl arasında gedən mübarizənin sonunda keçəlin zəfər çalması yazın qış üzərində qələbəsi kimi təsəvvür edilir.



## Yel çərşənbəsi

Novruz bayramının üçüncü çərşənbəsi Yel çərşənbəsi adlanır. Mifik inanca görə, Yel çərşənbəsində əsən soyuq və isti küləklər yazın gəlişindən xəbər verir. Gün ərzində küləyin bir neçə dəfə istiqamətini dəyişməsi onun özünü təmizləməsi kimi dəyərləndirilir. Xalq arasında ona "Yelli çərşənbə", "Küləkli çərşənbə", "Hava çərşənbəsi", "Külək oyadan çərşənbə" də deyirlər.

Yel çərşənbəsi ulularımızın və müasirlərimizin həyata münasibətində, adət-ənənələrimizdə əksini tapan bəzi fərqliliklərə görə digər çərşənbələrdən seçilir. Bu çərşənbədə xanımlar evdə təmizlik işlərinə başlayırlar. Yorğan-döşəkləri havaya çıxarır, təzə bahar nəfəsilə təravətləndirirlər. Ev-eşikdəki əşyalar – xalça-palazlar çırpılır, qapı-pəncərələr silinir və s.

Əsrlərdən gəlmiş düşüncəyə görə, Yel çərşənbəsində küləyin insanların qəlbindəki pis hissləri sovurub apardığına, mənən təmizlədiyinə, qəlblərdə və zehinlərdə xoş təəssüratlar oyatdığına inanılır. Bu çərşənbədə də digərlərində olduğu kimi, tonqallar qalanır, insanlar bu tonqalların üzərindən tullanırlar.

## Torpaq çərşənbəsi

Baharın gəlişini bildirən çərşənbələr arasında təntənə ilə qeyd olunanı Torpaq çərşənbəsidir. Ona "Yer çərşənbəsi", "İlaxır çərşənbə" də deyirlər. Bu çərşənbədə təbiət canlanır, ağaclar qış yuxusundan oyanaraq tumurcuqlamağa başlayır, el-oba əkinə hazırlaşır.

Xalq Torpaq çərşənbəsini spesifik xüsusiyyətlərinə və Novruz bayramına yaxın olduğuna görə xüsusi təntənə ilə qeyd edir. Qədim inanca görə, "İlaxır çərşənbə" Novruz bayramı ilə üst-üstə düşürsə, ilin daha uğurlu keçəcəyi gözlənilir. Bu çərşənbədə paxlava, şəkərbura, qoğal və bir çox şirniyyat hazırlanır, bayram süfrəsi bəzədilir. Şirniyyatların süfrəyə qoyulması ilin bərəkətli, ruzili və şirin keçməsinə işarədir. Ənənəyə görə, Torpaq çərşənbəsində süfrəyə acı və duzlu yeməklər qoyulmaz. Həmçinin qədim inanca görə, "İlaxır çərşənbə"də bərəkət sayılan nemətləri – duz, od, çörək və suyu başqasına vermək olmaz. Bayram xonçasının ortasına səməni qoyulur, ətrafı isə boyanmış yumurta, həmçinin qoz, fındıq, badam kimi çərəz növləri ilə bəzədilir.

Bu çərşənbədə müxtəlif ayinlər icra edilir, nəğmələr, bayatılar oxunur. Adətən, mərasimlər səhər tezdən başlayır və gecəyədək davam edir. "İlaxır çərşənbə"nin axşam şənlikləri daha maraqlı keçir: bacalardan torbalar sallanır, papaq atılır, qapı pusulur, evlərdə şamlar yandırılır və s. Adətə görə, Torpaq çərşənbəsində hamı evində olmalıdır. Övladlar onlardan ayrı yaşayan valideynlərinə baş çəkərək öz evlərinə qayıtmalıdırlar.

Göründüyü kimi, Novruz milli şülən, birlik, qardaşlıq bayramıdır. O, xalqımızın zəngin keçmişini, qədim adət-ənənələrini, milli kimliyini özündə ehtiva edir. Həmçinin, Novruz baharın ilk günü, təbiətin canlanması, torpağın oyanması, yeni həyatın başlanması deməkdir.

Əsrlərin sınağından çıxmış mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadan Novruz insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam dəyərlərin təbliğatçısıdır. Bu bayram bütün gözəl, xeyirxah əməlləri, dəyərləri və prinsipləri özündə daşıyır.

# AZƏRBAYCAN DİLİNƏ İLK DƏFƏ NƏŞR OLUNMUŞ TÖVRATIN TƏQDİMATI KEÇİRİLİB

Fevralın 13-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasında (MEK) Beynəlxalq Kitab Bağışlama Günü münasibətilə tədbir keçirilib.

Tədbiri açan MEK-in direktoru Leyla İmanova 2020-ci il Kitab Bağışlama Gününün devizinin "Kitaba məhəbbəti paylaş" olduğunu bildirib. Daha sonra kitabxana-xidmət şöbəsinin müdiri Aygün Səfərova Beynəlxalq Kitab Bağışlama Gününün tarixinə dair məlumat verib, MEK-in kitab bağışlama aksiyalarına aid qısa hesabatını təqdim edib.

Tədbir çərçivəsində MEK-ə də kitablar hədiyyə olunub. Xüsusi təqdimatla AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Teymur Sadıqov çıxış edib. Təqdimatçı ibridən Azərbaycan dilinə tərcümə etdiyi və nəfis formatda nəşr olunmuş Tövratı MEK-ə hədiyyə edib. O, indiyə qədər orijinal mətni ilə müqayisəli şəkildə tərcümənin mövcud olmadığını bildirib. T.Sadıqov gələcək planlarına dair vurğulayıb ki, akademik səviyyədə yerinə yetirilən bu tərcümədən sonra Azərbaycan şərqşünaslıq elmində yeni müqayisəli mövzular və tədqiqat işlərini davam etdirəcək. Tövratı ilk dəfə orijinaldan Azərbaycan dilinə tərcümə edən Teymur Sadıqov bildirib ki, müqəddəs kitabın tərcüməsi ilə 2014-cü ildən başlayaraq 5 il məşğul olub. Tərcümə zamanı bir çox çətinliklərə baxmayaraq, ibri, türk, ingilis, ərəb və rus dillərini mükəmməl bilməsi tərcüməçinin müxtəlif mənbələrdən istifadə etməsini asanlaşdırıb və problemlərin həllinə imkan yaradıb.

Tədbirdə çıxış edən AMEA-nın Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev və başqaları MEK-in təşkil etdiyi, Beynəlxalq Kitab Bağışlama Gününə həsr olunan tədbirin orijinal formatda keçirilməsini və Tövratın tərcümə layihəsini yüksək qiymətləndiriblər.

# SƏUDİYYƏ ƏRƏBİSTANI ÜMRƏ ZİYARƏTLƏRİNİ DAYANDIRDI




Səudiyyə Ərəbistanı Ümrə ziyarətlərini müvəqqəti olaraq dayandırıb.

Bu barədə açıqlamanı Türkiyə Diyanət İşləri Başqanlığı yayıb. Məlumatda bildirilir ki, Səudiyyə dövləti koronavirusun (Kovid-19) qarşısının alınması məqsədi ilə qabaqlayıcı tədbirlərə əl atmaq qərarına gəlib. Qərara əsasən, Ümrə ziyarəti üçün ölkəyə giriş müvəqqəti olaraq dayandırılıb. Qadağanın nə vaxt götürüləcəyi bəlli deyil.

Qeyd edək ki, Səudiyyə Ərəbistanında koronovirusa yoluxma ilə bağlı hər hansı fakt yoxdur.

# MÜQƏDDƏS ZAMAN DİLİMİ - ÜÇ AYLAR

Zaman var ki, səmaya yüksələn dualarla dəyər qazanar; zaman var ki, yağan ilahi mərhəmətlə nurlanar; zaman var ki, mərhəmət qapılarının taybatay açılmasına zəmin hazırlayar; zaman var ki, müqəddəsdir, onun hüdudlarında din daha içdən yaşanar, Allah daha dərindən hiss edilər...

Bu il fevral ayının 25-nə təsadüf edən Rəcəb ayının girməsi ilə bu "müqəddəs zaman dilimi"nə qədəm qoyduq. Bununla da, Ramazan ayının yaxınlaşdığını müjdələyən "Üç aylar"a (Rəcəb, Şaban, Ramazan) qovuşmuş olduq. İslam dünyasında əsrlərdir "Üç aylar" ənənəsi var və bu, möminlərin mübarək Ramazana hazırlıq mərhələsidir.

Bu aylar ilahi rəhmətin daha çox ortaya çıxdığı, insanların xeyir əməllərə can atdığı aylardır; insanların mənəvi yüksəkliyə çatması, tövbə etməsi, günahlardan təmizlənməsi üçün fürsətdir.

Rəcəb ayının ilk cümə gecəsi isə (bu il 27 fevrala təsadüf edir) İslam aləmində müqəddəs sayılan Rəqaib qəndili xüsusi təmtəraqla qeyd edilir. "Rəqaib" sözünün mənası "çox bəxşiş, bol ehsan, bərəkətli an" deməkdir. Bu gecə möminlərə mənəvi qazanc əldə etmələri üçün bəxş olunmuş fürsətdir. Bu fürsəti dəyərləndirmək istəyən mömin gündüz oruc tutmalı, gecəni ibadətlə keçirməli, qəza, yaxud nafilə namaz qılmalı, Qurani-Kərim oxumalı, çoxlu dualar, zikrlər etməli, Allahdan gələcək günlərinin xeyirli olmasını diləməli, tövbə etməlidir.

Həzrət Peyğəmbərdən (s) rəvayət olunan hədisdə deyilir: "Rəcəb ayında Allaha çox istiğfar edin, çünki Allah-Təalanın Rəcəb ayının hər vaxtında Cəhənnəmdən azad etdiyi qulları vardır..." (Deyləmi)

## İSLAM MƏDƏNİYYƏTİ PAYTAXTI - 2015

# ALMATI

18.6 milyon insanın yaşadığı Qazaxıstan əhalisinin sayına görə dünyanın 64-cü ölkəsidir və dünya əhalisinin 0.24%-ni təşkil edir. Dövlətin paytaxtı Nur-Sultan olsa da, ən böyük şəhəri Almatıdır. Orta Asiyanın ən müasir, ən böyük və perspektivli şəhərlərindən biri olan Almatıda təxminən 2 milyon insan yaşayır. Şəhərin əsası Avrasiya qitəsinin mərkəzində, Qazaxıstan Respublikasının cənub-şərqində Trans-ili alatau (Zailiyski Alatau) dağlarının ətəyində, Malaya Almatinka çayının sol sahilində 4 fevral 1854-cü ildə Rusiyanın ticarət yollarının təhlükəsizliyini təmin etmək məqsədilə rus ordusu tərəfində hərbi istehkam kimi qoyulmuşdur. Qədim İpək Yolunun üzərində yerləşən bu şəhərdə aparılmış arxeoloji tədqiqatlar nəticəsində Tunc dövrünə aid yaşayış məskənin qalıqları aşkar edilmişdir. Həmçinin orta əsrlərdə köçəri türklər, monqollar bu ərazilərdən düşərgə kimi istifadə etmişlər. Şəhərin ərazisi 682 km²-dir. Qazaxıstanın keçmiş Prezidenti Nursultan Nazarbayevin 16 aprel 2014-cü il Almatı şəhərinin sərhədlərinin genişləndirilməsi ilə bağlı Sərəncamına əsasən, şəhərin ərazisi 232 km² artırılaraq 682 km²-ə çatdırılmışdır. Qazaxıstanın ən böyük şəhəri hesab olunan Almatı 1991-1997-ci illərdə müasir dövlətin paytaxtı olmuşdur.

Paytaxtın köçürülməsinə baxmayaraq, Almatı ölkənin aparıcı şəhəri hesab olunur. Bura təhsil, elmi, mədəni, maliyyə, sənaye, innovasiya, nəqliyyat, ticarət, logistika, idman, turizm və mədəniyyət mərkəzidir. Şəhərdə 100-dən çox mədəniyyət müəssisəsi, o cümlədən muzeylər, teatrlar, sənət qalereyaları, filarmoniyalar, konsert salonları, kitabxanalar və s. mövcuddur. Bundan əlavə, şəhərdə 161 tarix və mədəniyyət abidəsi vardır. Hər il burada müxtəlif beynəlxalq festivallar, mədəniyyət forumları və müsabiqələr keçirilir.

Şəhərdə qazaxlarla yanaşı ruslar, özbəklər, qırğızlar, taciklər, uyğurlar, koreyalılar, tatarlar və başqa xalqların nümayəndələri yaşayır. Burada müxtəlif dinlərin daşıyıcıları da məskunlaşmışlar. Qazaxıstanda, xüsusilə Almatı şəhərində müsəlmanlarla yanaşı, xristianlar, yəhudilər və b. dinlərin nümayəndələri yaşayırlar. Ölkə Konstitusiyasına görə, Qazaxıstan dünyəvi dövlətdir. Ölkədə ən çox yayılmış din isə İslamdır, əhalinin təxminən 70%-ni müsəlmanlar təşkil edir. Müsəlmanların əksəriyyəti hənəfi məzhəbinə mənsubdur. Qazaxıstana İslamın gəlişi VIII əsrə təsadüf etsə də, yayılması X əsrə qədər davam etmişdir.

Təkcə Almatı şəhərində 30-dan çox məscid fəaliyyət



göstərir. Bunlar "Amin", "Əsgər ata", "Baiken" "Mirzə Əhməd", "Kök Qaynar", "Şərqin şəfəqi", "Nur", "Muzammil", "Orbit", "Taugül", "Kalkaman-2", "Kıstıbayul Manas", "Aksay", "Mərkəzi Məscid", "Tastak", "Vaynax", "Nəbi", "Firəli", "İntımak", "Türksib", "İsmixan", "Fatimə", "əl-Həmid", "Sultan Qorqan", "Əli Məhəmməd", "Bakıtkeldı", "Nur Mübarək", "Amangül Ata", "Rayımbek batır", "Nurlu", "Beket ata", "Duman", "Mədinə"dir.

Məscidlərin içərisində ən məşhuru, Qazaxıstanın ən böyük məscidlərdən biri olan Almatı Cümə məscididir. Bu ibadət ocağı 1890-cı ildən fəaliyyət göstərən köhnə Tatar məscidinin yerində inşa edilmişdir. İnşası 1999-cu ildə başa çatmışdır. Layihənin memarları S.K.Baimaqambetov, J.N.Şarapiyev, K.Jarılqanov, dizayneri isə K.R.Tolebayevdir. Üç mərtəbədən ibarət olan məscid düzbucaqlı formasındadır və sahəsi 3800 m²-dir. Qübbələri (hündürlüyü 27 m) və günbəzləri Quran ayələri ilə bəzədilmişdir. Binanın əsas günbəzinin hündürlüyü 36 m, diametri 20 m, minarəsinin hündürlüyü isə 47 m-dir.

Almatının digər məşhur məscidi Baikendir. Onun açılışı 2014-cü il dekabrın 5-də olmuşdur. Nursultan Nazarbayevin təşəbbüsü ilə tikilən məscidə görkəmli dövlət xadimi Qazax SSR Ali Soveti Rəyasət Heyətinin sədri Baiken Aşımovun adı verilmişdir. İbadət evinin ümumi sahəsi 6000 m²-dir. Qadınlar üçün nəzərdə tutulmuş zal məscidin yuxarı mərtəbəsindədir. Orta Asiyadakı əksər məscidlərdə olduğu kimi, Baiken məscidinin də həyəti yoxdur. Məscidə bütün istiqamətlərdən daxil olmaq mümkündür. İşıqlandırma və vitray pəncərənin çoxluğu baxımından şəhərdəki digər məscidlərdən fərqlənir. Onun akustikası müasir səs avadanlığı üzərində qurulmuşdur. Məscid binasında ənənəvi qızıl günbəz və dörd minarə vardır. İbadət evi iş hər gün səhər 6-dan axşam 9-a qədər fəaliyyət göstərir.

Qazaxıstanda İslamdan sonra ən geniş yayılmış din Xristianlıqdır. Xristianlıq buraya təxminən VI əsrdə gəlmişdir. Almaatı şəhərində bu dinə aid bir neçə ibadət evinə rast gəlmək olar. Bunlardan ən məşhurları "Müqəddəs Üçlük kilsəsi", "Yüksəliş kilsəsi", "Müqəddəs Nikol kilsəsi", "Kazan kilsəsi", "Sofiya kilsəsi" və "İsa Məsihin mövludu kilsəsi"dir.

**Tural Vəlizadə**

# TERRORÇULARI MALİYYƏLƏŞDİRƏNLƏRƏ EDAM VƏ YA ÖMÜRLÜK HƏBS CƏZASI

Misirdə terrorçuları maliyyələşdirənlər edam və ya ömürlük həbs cəzasına məhkum ediləcək. "Egyptindependent" nəşri xəbər verir ki, bununla bağlı parlamentin iclasında terrorizm haqqında 2005-ci il qanununa dəyişiklik edilib.

Misir parlamenti terror təşkilatlarının və terrorçuların siyahısına da əlavələr edib. Yeni qanuna görə, bir və ya bir neçə terrorçuya təlim keçən, onları silah və sənədlərlə təmin edən, səyahətləri üçün maliyyə yardımı göstərən şəxslər də ən ağır cəzaya məruz qalacaqlar. Terrorçulara internet vasitəsilə yardım göstərənlər barəsində ömürlük həbs cəzası tətbiq ediləcək.

Parlamentin düzəlişlərində terrorçu təşkilatlara hər hansı yardım göstərən şirkətlərin, assosiasiyaların da fəaliyyətinin qadağan olunacağı, onların sahiblərinin isə cinayət məsuliyyətinə cəlb olunacağı təsbit edilib. Deputatlar peyk telekanallarında və sosial şəbəkələrdə terrorun təbliği ilə məşğul olanların da potensial terrorçu kimi siyahıya daxil edilməsini təklif ediblər. Lakin parlament spikeri Əli Əbdül-Al bunun əleyhinə çıxıb. O, həmin təklifin Misir Konstitusiyasına zidd olduğunu bildirib.

# İKİ KATOLİK UNİVERSİTETİ İMAMLAR ÜÇÜN HAZIRLIQ PROQRAMI HAZIRLAYACAQ

Belçikanın iki nüfuzlu katolik universiteti ilk dəfə məscid imamları və vaizləri üçün hazırlıq proqramı təşkil edəcək. "The Tablet" həftəlik icmalının verdiyi xəbərə görə, İslam təhsil proqramı "2016-cı ildə Brüsseldə islamçıların hücumlarından sonra fəaliyyətə başlayan" rəsmi komissiyanın işi nəticəsində ötən ilin sonlarında elan olunub. Proqramın məqsədi gələcək imamların universitet səviyyəsində təhsil almalarını təmin etməkdir.

Belçikada din xadimləri dövlət tərəfindən maliyyələşir. İki katolik universitetinin bazası əsasında formalaşan yeni proqram dövlət tərəfindən tanındığından imamlar rəsmi maaş ala biləcəklər.

Belçikanın ədliyyə naziri və Xristian Demokrat partiyasının üzvü Koen Hens deyib ki, xarici təsiri azaltmaq məqsədilə müsəlman din xadimləri üçün Belçika təhsil proqramı hazırlayırlar. "Onların nə öyrəndiklərini bilmək vacibdir", – deyə belçikalı siyasətçi etiraf edib.

"Flanders Today"-in məlumatına görə, sözügedən proqram təkcə imamların təhsilini deyil, eyni zamanda müsəlman icmasında vacib rol oynayan digər şəxslərin, o cümlədən ilahiyyatçıların hazırlığını nəzərdə tutub. Bildirilir ki, əsas məqsəd həmin şəxslərin dini biliklərlə yanaşı, ölkənin qanunlarını və ictimai dəyərlərini bilmələrini təmin etməkdir.

Proqram iki mərhələdən ibarətdir. Birinci mərhələdə tələbələr hüquq, politologiya, din psixologiyası və sosiologiyası, ərəb fəlsəfəsi, etika, Yaxın Şərq və Şimali Afrika üzrə kurs keçəcəklər. İkinci uzunmüddətli kursda isə onlar Quran öyrənəcək, təcrübə keçəcək və ilahiyyata dair məlumat əldə edəcəklər.

# BİLİRSİNİZMİ?

**1 mart** – Pravoslavlarda "Bağışlanma Bazar Günü"dür. Böyük Pəhrizdən öncəki sonuncu bazar günü məhz belə adlanır. Çünki həmin gün kilsədə axşam ibadətindən sonra xüsusi bağışlanma mərasimi keçirilir. Ruhanilər və kilsə mənsubları Böyük Pəhrizə inciklikl ərdən təmizlənmiş qəlblə girə bilmək üçün bir-birindən üzr istəyir, küsülü olduqlarını bağışlayır və barışırlar.

**2 mart** – Pravoslavlarda Böyük Pəhrizin başlandığı gündür. 40 gün davam edən Böyük Pəhriz əsasən İsa Məsihin (Matta 4, 2), habelə Musanın (Çıxış 34, 28) və İlyasın (1 Padşahlar 19, 8) qırx günlük orucunun xatirəsinə tutulur. Rəvayətə görə, İsa Məsih vəftizindən bir müddət sonra səhraya çəkilərək orada oruc tutmuşdur. Böyük Pəhriz digər dörd çoxgünlük pəhrizlərdən ən əsası sayılır. Onun qaydaları Kilsə Nizamnaməsində öz əksini tapmışdır. Pəhriz vaxtı insanlar tövbə və dua edir, bəzi yeməklərdən və pis vərdişlərdən uzaq dururlar.

**2 mart** – Bəhailikdə orucun başlandığı gündür. Martın 20-nə qədər davam edən bu müddət ərzində inanclı insanlar gün çıxandan batana qədər yemək yemir, su içmirlər. Bu dövr dua və təfəkkür üçün xüsusi vaxt sayılır. On beş yaşına çatmamış uşaqlar, süd verən və hamilə qadınlar, səfərdə olanlar, xəstə və qocalar oruc tutmaqdan azaddırlar.

**3 mart** – Ümumdünya Yazıçılar Günüdür. Beynəlxalq PEN-Klubun 48-ci konqresinin qərarına əsasən 1986-cı ildən qeyd edilir. 1921-ci ildə Londonda yaradılan PEN-Klub yazıçıların beynəlxalq birliyi olaraq müəyyənləşdirilib. Belə bir gün yazıçıların cəmiyyətin həyatında oynadığı rol nəzərə alınaraq, sülh və dünyanın ayrı-ayrı ölkələrində yaşayan yazıçıların həmrəyliyi məqsədilə təsis edilib.

**5 mart** – Zərdüştlükdə Spenta-Armaiti bayramıdır. "Müqəddəs Torpaq" bayramı sayılan Spenta-Armaiti hər kəsə dünyəvi borcunu dərk etmək, öz təslimiyyət dərəcəsini qəbullanmaq imkanı verir. Bu bayram Zərdüşt dini mənsublarına xatırladır ki, yeri bütün səviyyələrdə - torpaq qatından başlayaraq insanın öz bədəninə qədər becərmək lazımdır. Çünki insan bədəni də torpağın bir hissəsidir. Spenta-Armaitinin müqəddəs prinsipi təvazökarlıq və rasionallığı, eləcə də Yer kürəsinə qarşı hörməti və düzgün münasibəti öyrədir, bunun üçün bir sıra qaydalar qoyur. Bayram, eyni zamanda evi və məbədi qoruyan, başqalarına xidmət edən və özünü qurban verən heyvana - Müqəddəs Köpəyə həsr olunub.

**5 mart** – 1970-ci ildə Nüvə Silahının Yayılmaması haqqında Saziş qüvvəyə minib. Birləşmiş Millətlər Təşkilatının (BMT) Silahsızlaşdırma Komitəsi tərəfindən hazırlanan saziş nüvə silahlarının və silah texnologiyasının yayılmasının qarşısını almaq, nüvə enerjisindən sülh məqsədlərində istifadə etmək üçün iş birliyini artırmaq, nüvə silahlarından tam və ya qismən imtinaya nail olmaq üçün nəzərdə tutulan beynəlxalq müqavilədir.

**7 mart** – Roma imperatoru I Konstantin ilk dəfə 321-ci ildə bazar gününü istirahət günü elan edib. Konstantinin göstərişindən əvvəl Roma sakinləri bu günü "Günəş günü" kimi qeyd edirdilər. Bir sıra Avropa dillərində bazar gününün adında bu gün də bu ənənənin izlərinə rast gəlmək mümkündür. Konstantin ənənəni bir qədər dəyişdirmişdir. Buna səbəb yuxusu olmuşdur: vacib bir döyüş ərəfəsində o, yuxusunda Günəşin üzərində xaç işarəsi və qələbə vəd edən bir yazı görmüşdür. Yuxusu həqiqətən çin olmuş və Konstantin qələbə qazanmışdır. Buna görə də imperator bazar gününü Rəbbə həsr edərək həmin gün fiziki işlə məşğul olmağa qadağa qoymuşdur.

**8 mart** – Beynəlxalq Qadınlar Günüdür. Qadın hərəkatının tarixi 1857-ci ildə Nyu-Yorkda qadınların 12 saatlıq iş gününə etiraz ilə başlayıb. 1910-cu ildə alman sosialist qadın Klara Setkin 8 martın dünya qadınlar günü kimi qeyd edilməsinə nail olub. 1977-ci ildə BMT bu günü qadın günü kimi rəsmiləşdirib. Beynəlxalq İşçi Qadınlar Günü kimi də tanınan bu bayram qadınların iqtisadi, ictimai və siyasi mübarizəsini, habelə ümumi olaraq qadınlara qarşı nəzakət, sevgi və məhəbbəti tərənnüm edən ənənəvi bayramdır.

**9 mart** – Millətlərin Həmrəyliyi Günüdür. Millətlər Birliyinin Beynəlxalq Cəmiyyətinə (1947-ci ilə qədər Britaniya Xalqlarının Birliyi adlanıb) üzv olan 53 ölkə hər il martın ikinci bazar ertəsi gününü bayram edir. Bu, əvvəllər Britaniya imperiyasının tərkibində olan müstəqil dövlətlərin birliyidir. Onlar Britaniya monarxını müstəqil ittifaqın simvolu kimi tanıyırlar. Millətlər Birliyinin hüquqi statusu 1931-ci il tarixli Vestminster Əsasnaməsi ilə müəyyən olunub. Birliyin tərkibində Katiblik mövcuddur, hər il Birlik ölkələrinin konfransları keçirilir. İngiltərədə hökumətin daxilində Birlik Məsələləri üzrə Dövlət Katibi vəzifəsi təsis edilib.

**10 mart** – Yəhudilikdə Purim bayramıdır. Purim yəhudi dilindən tərcümədə "püşk" mənasına gələn "pur" sözündən törəmişdir. "Şadyanalıq bayramı" mənasını verən Purim bayramı yəhudilərdə qadın ağlını və millətin özünümüdafiə haqlarını, xilasını simvolizə edir.

**10 mart** – Hindistanda Holi bayramıdır. Rənglər festivalı kimi tanınan Holi baharın gəlişinin və hind cədvəli üzrə Yeni ilin başlanmasının rəmzidir. Holi üçün hazırlığa bayrama bir neçə həftə qalmış başlanılır. Xüsusilə, bayram tonqalı üçün odun, çırpı yığılır. Hesab edilir ki, od qışdan qalan soyuğu və zalım ruhları qovmaqda köməklik edir. Bayram qabağı binaların divarları parlaq rənglərlə boyanılır, məkan isə güllərlə bəzədilir. Holi bayramını rəngarəng parad, milli mahnılar, rəqslər və ümumi şənlik müşayiət edir. İştirakçılar bir-birinə rəngli toz və su səpirlər.

**13 mart** – 2020-ci ildə Ümumdünya Yuxu Günüdür. Dünya Səhiyyə Təşkilatının qərarı ilə 2008-ci ildən etibarən hər il martın üçüncü cümə günü sağlamlıq və yuxu problemləri çərçivəsində Ümumdünya Yuxu Günü kimi qeyd edilir. Həmin gün sosial-yönümlü reklam çarxları nümayiş olunur, müxtəlif konfrans və simpoziumlar təşkil edilir, yuxunun müxtəlif problemlərinə və onun pozulması, eləcə də orqanizmə təsiri ilə əlaqədar tədbirlər keçirilir.

**15 mart** - Dünya İstehlakçı Hüquqlarının Müdafiəsi Günüdür. İlk dəfə 1983-cü ildə qeyd olunub. Keyfiyyət sahəsində yaranmış məsələlərin həllinin vacibliyini və istehlakçıların narazılıqlarını ölkə qarşısında vacib problem kimi qəbul edən ABŞ Prezidenti Con Kennedi 1962-ci il martın 15-də Konqresdəki çıxışında bu günü Dünya İstehlakçılar Günü elan edib.

**18 mart** – 1965-ci ildə tarixdə ilk dəfə insan açıq kosmosa çıxmışdır. "Vosxod" kosmik gəmisində ilk dəfə 23 dəqiqə açıq kosmosda olan Aleksey Leonov onun 12 dəqiqəsini kosmik gəmidən kənarda keçirib.

**20 mart** – Beynəlxalq Xoşbəxtlik Günüdür. BMT tərəfindən təsis edilən bu gün ilk dəfə 2013-cü ildə qeyd olunub. Məqsəd xoşbəxtliyə can atmağın planetimizdəki bütün insanların ortaq hissi olması haqqında ideyanı dəstəkləməkdir. Beynəlxalq Xoşbəxtlik Gününün təsisçilərinin fikrincə, bu bayram xoşbəxtliyin bəşəriyyətin əsas məqsədlərindən biri olduğunu göstərmək və xatırlatmaq üçün təsis olunub.

**20 mart** – Yer Günüdür. 1971-ci ildə BMT-nin təşəbbüsü ilə təsis olunub. Üstəlik, beynəlxalq bayramlar təqvimində iki Yer Günü var – birincisi yaz gecə-gündüz bərabərliyi günündə, ikincisi isə 22 aprel tarixində qeyd olunur. Birincisi sülhməramlı və humanist, ikincisi isə ətraf mühit yönümlüdür. Yer Günü olaraq məhz 20 mart tarixinin seçilməsi həmin günün yaz gecə-gündüz bərabərliyinə təsadüf etməsi ilə əlaqədardır. Həmin gün planetin bioloji ritmi dəyişir və o, inkişafının yeni mərhələsinə qədəm qoyur, təbiət oyanır və yenidən canlanır.

**20 mart** – Maslenitsadır. Keçmişdə "Komoeditsa" adlanan bu bayram qışın yola salınması, yazın gəlişi ilə bağlıdır. "Kom" qədim slavyan dilində ayı deməkdir. Ayı qədim slavyanlarda meşənin hökmdarı sayılırdı. Ona görə də nazik kökələr – "blin" bişirilərək ilk onlara "təqdim etmək" adəti vardı. Kökələr Günəşin, yazın gəlişinin simvolu sayılırdı. Xalq inancına görə, bununla onlar ayının razılığını alaraq yazın gəlişini tezləşdirirdilər. Bayram günü tonqallar qalanır, qışın (köhnəliyin) rəmzi olan "Maslenitsa" müqəvvası yandırılır.

**20 mart** - Tokioda "O-hanami" – sakura ağacının çiçəkləməsi festivalı keçirilir. Yaponiyada rəsmi bayram sayılmasa da, bu hadisə xalq tərəfindən böyük təmtəraqla qeyd edilir. İmperator sarayında sakuranın çiçəklərindən zövq almaq ənənəsinin əsası Heyan dövründə (794-1185-ci illər) qoyulmuşdur. Həmin dövrün əsilzadələri çiçəkləmiş ağacların altında yüngül içkilərdən, müxtəlif oyunlardan və poeziyadan zövq almağı xoşlayırdılar. Onlar sakuranın qısamüddətli, parlaq çiçəklərində dərin məna görürdülər. Həyatın sürətlə keçməsini sakuranın qısa dövrdə tökülən çiçəklərinə bənzədənlər bunun böyük cəsarət və paklıq rəmzi olduğunu düşünürdülər.

**21 mart** – Novruz bayramıdır. Novruz baharın ilk günü, təbiətin canlanması, torpağın oyanması, yeni həyatın başlanması deməkdir. Gecə ilə gündüzün bərabərləşdiyi bu günü qədim zamanlardan bir sıra xalqlar yeni ilin başlanğıcı kimi qeyd etmiş, şənliklər keçirmişlər. Bu şənliklər təkcə Azərbaycanda deyil, eyni zamanda İran, Əfqanıstan, Tacikistan, Özbəkistan və bir çox Şərq ölkələrində qeyd olunur.

**21 mart** – Ümumdünya Poeziya Günüdür. UNESCO tərəfindən 1999-cu ildə təsis edilən bu günün qeyd olunmasında məqsəd milli, regional və beynəlxalq poetik hərəkata yeni impuls verməkdir.

**21 mart** – İrqi Ayrı-Seçkiliyin Ləğv Edilməsi Uğrunda Beynəlxalq Mübarizə Günüdür. 1960-cı ildə Cənubi Afrikanın Şarpervil qəsəbəsində aparteid qanunlarına etiraz edən onlarca dinc nümayişçi polis qüvvələri tərəfindən güllələbaran edilərək qətlə yetirilib. 1966-cı ildə BMT Baş Assambleyası həmin tarixin İrqi Ayrı-Seçkiliyin Ləğv Edilməsi Günü kimi qeyd edilməsi barədə qərar qəbul edərək beynəlxalq ictimaiyyəti irqi ayrı-seçkiliyin bütün formalarının ləğvi uğrunda səyləri birləşdirməyə çağırıb.

**28 mart** – 2020-ci ildə Yer saatı Günüdür. Ümumdünya Vəhşi Təbiət Fondu tərəfindən hər il mart ayının axırıncı şənbə günü keçirilən beynəlxalq tədbir vasitəsilə hər kəs, dövlət və kommersiya təşkilatları həyati əhəmiyyət daşımayan bütün elektrik cihazlarını bir saatlığa söndürməyə çağırılır. Bununla da dünyada iqlimin dəyişməsinə diqqət ayırmağa çalışılır.

**31 mart** – Azərbaycanlıların Soyqırımı Günüdür. 1918-ci ilin martından etibarən əks-inqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Sovetinin daşnak-bolşevik rəhbərliyi tərəfindən Bakı şəhərini, sonrada bütün Bakı quberniyasını azərbaycanlılardan təmizləmək planı həyata keçirilib. Həmin günlərdə minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə qətlə yetirilib. Azərbaycanlıların soyqırımı daha sonra Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, İrəvanda və başqa bölgələrdə xüsusi qəddarlıqlarla davam etdirilib. Bu ərazilərdə də dinc əhali kütləvi surətdə qətlə yetirilib, kəndlər yandırılıb, milli mədəniyyət abidələri dağıdılaraq məhv edilib.

# DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

**«Lənkəran rayonu Xarxatan kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116C–666

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Cavadov Hüseyn Sayaf oğlu, Babayev Xəlifə Oğlan oğlu, Babayev Güləhməd Mirəhməd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Cavadov Adigözəl Əskər oğlu, Cavadov Arif Hüseyn oğlu, Dadaşov Calal İsrafil oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 20 dekabr 2019-cu il

**«Lənkəran rayonu Veravul kəndi «Cümə» məscidi» dini icması**

Qeydiyyat tarixi: 15 iyul 2010-cu il
Qeydiyyat №-si: 100110A3–430

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əzimov Əliheydər Vəli oğlu, Abasov Həsən Hüseynəli oğlu, Mirzəyev Hidayət Allahverdi oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Sadıxov Zahir Əmir oğlu, Qulamov Adil Dunyamalı oğlu, Abbasov Rüfət Həsən oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 20 dekabr 2019-cu il

**«Cəlilabad rayonu Maşlıq kəndi «Şəhidlər» məscidi» dini icması**

Qeydiyyat tarixi: 30 iyun 2017-ci il
Qeydiyyat №-si: 100117A–746

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Musayev Cəlil Yunus oğlu, Vəliyev Şaban Rəfi oğlu, Qubadova Kifayət Məhəmməd qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Məhərrəmov Əliqasım Səid oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 20 dekabr 2019-cu il

**«Neftçala rayonu Xəzər kəndi «Həzrət Əbülfəz» məscidi» dini icması**

Qeydiyyat tarixi: 11 may 2010-cu il
Qeydiyyat №-si: 100110A3–357

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Mənsimov Sədi Çoçi oğlu, Şəkiyev Həsənağa Mirhəsən oğlu, Səfərov Adinə Abdulhəsən oğlu, Əliyev Əli Eyvaz oğlu, Kazımov Ağa Dövlətalı oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Fərəcov Zamiq Ramazan oğlu, Hüseynov Rövşən Simon oğlu, Rəsulov Loğman Səlimxan oğlu, Nəbiyev Müşfiq Namus oğlu, Bədəlov Xanlar Şivəxan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 25 dekabr 2019-cu il

**«İmişli rayonu Bəcrəvan kəndi «Əhli-Beyt» məscidi» dini icması**

Qeydiyyat tarixi: 05 dekabr 2018-ci il
Qeydiyyat №-si: 100118A – 874

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən İsrafilov Musa Misir oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

İsrəfilov Misir Musa oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 25 dekabr 2019-cu il

**«Sabirabad rayonu Bulaqlı kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 24 aprel 2015-ci il
Qeydiyyat №-si: 100115C– 580

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Mühiddinov Şövkət Mühiddin oğlu, Muhəddinov Əli XXX, Niyazov Abdusəlim Qafur oğlu, Nazimov Ənvər Nazim oğlu, Səlimov Abubəkir Ömər oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Mexraliyev Xalil Aydinoviç, Mexraliyeva Ayqul Muxlisovna dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 25 dekabr 2019-cu il

**«Quba rayonu II Nügədi kəndi «Hacı Seyid Siracəddin» məscidi» dini icması**

Qeydiyyat tarixi: 22 iyun 2010-cu il
Qeydiyyat №-si: 100110A3–420

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Muradov Ziyarəddin Orucbala oğlu, Əfəndiyeva Nazlı Calaləddin qızı, Salıyeva Sinabə Buxsay qızı dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Səfərov Bayramşah Salam oğlu, Salıyev Orxan Anar oğlu, Salıyev Anar Vəlibəy oğlu, Səfərov Şöhrət Bayramşah oğlu, Salıyeva Gülmirə Şəmsibala qızı dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 25 dekabr 2019-cu il

**«Göyçay rayonu II Ərəbcəbirli kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 10 avqust 2010-cu il
Qeydiyyat №-si: 100110A4 – 472

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Baxışov Qənbər Bayram oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Hüseynov Bəxtiyar Mirpaşa oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 25 dekabr 2019-cu il

**«Masallı rayonu Boradigah qəsəbəsi «Həzrəti Əli» məscidi» dini icması**

Qeydiyyat tarixi: 30 iyun 2017-ci il
Qeydiyyat №-si: 100117C – 743

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Kazımov Musarza Qulamhüseyn oğlu, Qurbanov Əzizağa Məmməd oğlu, Əliyev Ağababa Mürsəl oğlu, İsmayılov Akif Nayıb oğlu, İsmayılov Arzuman İbrahim oğlu, Zeynalov Səfər Ağababa oğlu, Mövsümov Sərdar Əlimərdan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Ramazani Sadıq İbrahim oğlu, Nağıyev Fərid Füzuli oğlu, Kazımlı Ramin Hüseynəli oğlu, Seyidağayev Vüqar Qabil oğlu, Məmmədov Tahir Hüseynəli oğlu, İsmayılov Fuad Arzuman oğlu, Nağıyev Füzuli Əzizulla oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 27 dekabr 2019-cu il

**«Oğuz rayonu Sincan kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 04 oktyabr 2010-cu il
Qeydiyyat №-si: 100110A4 – 502

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Kərimov Ramin Əli oğlu, Mikayılov Əlixan Məhəmmədəli oğlu, Səfərov Hicran Əzəhməd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Başirli Abdulhafiz Kamal oğlu, Kərimov Vasif Tahir oğlu, Abdullayev Elnur Nizami oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 25 dekabr 2019-cu il

**«Lənkəran rayonu Kərgəlan kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 28 aprel 2010-cu il
Qeydiyyat №-si: 100110A2 –326

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əliyev Rəhim Nurəli oğlu, Əhmədov Əhməd Musarza oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Ələskərzadə Hikmət Nizami oğlu, Kərəmzadə Şükür İlham oğlu, Babayev Ramil Rəcəbəli oğlu, Babayev Qəhrəman Bilal oğlu, Əhmədzadə Ramal Xudaverdi oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 25 dekabr 2019-cu il

**«Lənkəran rayonu Ləj kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 28 aprel 2010-cu il
Qeydiyyat №-si: 100110A2–331

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Aslanlı Faiq Tofiq oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Məmmədov Nadir Orucəli oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 25 dekabr 2019-cu il

**«İmişli rayonu Boşçalılar kəndi «İmam Hüseyn» məscidi» dini icması**

Qeydiyyat tarixi: 30 iyun 2017-ci il
Qeydiyyat №-si: 100117A – 742

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Aslanov Ayaz Misir oğlu, Əliyev İbrahim Nayıb oğlu, Qocayev Qərib Nəsib oğlu, Əliyeva Sarış Mehdiqulu qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Dəyişikliklərin qeydiyyat tarixi: 25 dekabr 2019-cu il

**«Masallı rayonu Xıl kəndi «Becanlı» məscidi» dini icması**

Qeydiyyat tarixi: 21 dekabr 2015-ci il
Qeydiyyat №-si: 100115C – 619

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Zamanov Rövşən Əhmədağa oğlu, Nəzərov Hamil Əli oğlu, Zamanov Mirzə Qulaməli oğlu, Fərzəliyev Dəmir Kərəm oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Abasov Faiq Gülheydər oğlu, Abasov Aləm Akif oğlu, Zamanov Səlimağa Kitabəli oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 25 dekabr 2019-cu il

**«Masallı rayonu Ərkivan qəsəbəsi «Zeynoba» məscidi» dini icması**

Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116C – 710

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Şiriyev Çərkəz Abdul oğlu, Nağıyev Nağı Allahqulu oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Quliyev Xanağa Abusət oğlu, Musayeva Yeganə Hacırza qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 26 dekabr 2019-cu il

**«Neftçala rayonu Həsənabad qəsəbəsi «İmam Cəfər Sadiq» məscidi» dini icması**

Qeydiyyat tarixi: 15 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A2-96

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Qardaşov Ağahəsən Qubad oğlu, Ələkbərov Səməd İmran oğlu, Əliyev Təvəkkül Nəzər oğlu, Bayramov Tofiq Əsəd oğlu, Əsgərov Əlisafa Mürsəl oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Rəsulov Samid Qubad oğlu, Baloğlanov Hüseyn Gülhüseyn oğlu, Bayramov Tofiq Mirzə oğlu, Nazarov Əsəd Şəmşad oğlu, Xankişiyev Samid Adil oğlu, Əliyev Təbriz Böyükkişi oğlu, Baloğlanov Rüfət Zakir oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Qardaşov Ağahəsən Qubad oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Rəsulov Samid Qubad oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 25 dekabr 2019-cu il

davamı səh. 14

əvvəli səh. 13

**«Qusar rayonu Avaran kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 100110A3 –377
Qeydiyyat №-si: 25 may 2010-cu il

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Hacıyev İbrahim Nabi oğlu, Osmanov Səlimxan Balamət oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Rəhimxanov Hürmət Fəryaddin oğlu, Əmrahov Ədalət Əmrah oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 25 dekabr 2019-cu il

**«Quba rayonu Xucbala kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116C – 682

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Quliyev Tahir Əlibaba oğlu, Əliverdiyev Rəhman Bəbir oğlu, Xantəmirov Loğman Dadaş oğlu, Abayev Rza Məmməd oğlu, Xəlilov Xəlil Əsədulla oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Zeynalov Famil Oktay oğlu, Qocayev Turan Qəzənfər oğlu, Abayev Sərdar Rza oğlu, Şabutov İlyas Xanlar oğlu, Babayev İlkin Sultan oğlu, Haciyev Elsəvər Rasim oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 25 dekabr 2019-cu il

**«Bakı şəhəri «Molokan ruhani-xristian» dini icması**

Qeydiyyat tarixi: 14 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A2 – 91

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Nikolayev Viktor Mixayloviç, Tretyakov Vladimir Nikolayeviç, Jemkov Sergey Mixayloviç dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Nepryaxin Aleksandr Nikolayeviç, İlin Sergey Timofeyeviç, Nepryaxina Lyubov Nikolayevna dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 27 dekabr 2019-cu il

**«Salyan rayonu Xalac kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 27 oktyabr 2010-cu il
Qeydiyyat №-si: 100110A4 – 508

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Sadıqov Məhəmməd Yusif oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Sadıqov Rəhman Məhəmməd oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 28 dekabr 2019-cu il

**«Masallı rayonu Sığıncaq kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 09 aprel 2010-cu il
Qeydiyyat №-si: 100110A2 –277

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Hümmətov Pənalı Nüsrət oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Əkbərov Əli Qədimalı oğlu, Həsənov Mürsəl Əlinadir oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 28 dekabr 2019-cu il

**«Sabirabad rayonu Qalaqayın kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 14 yanvar 2010-cu il
Qeydiyyat №-si: 100110A1 –163

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Rüstəmov Salman Saleh oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Əhmədov Akif Əhməd oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 28 dekabr 2019-cu il

**«Masallı rayonu II Səmidxan kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 13 noyabr 2015-ci il
Qeydiyyat №-si: 100115C – 613

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Rəhimov İxtiyar Bəxtiyar oğlu, Ağayev Habil Hacıağa oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Əliyev Rəşad Yunsur oğlu, Tağıyev İmran Şakir oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 28 dekabr 2019-cu il

**«Sabirabad rayonu Əsgərbəyli kəndi «İmam Əli» adına məscidin» dini icması**

Qeydiyyat tarixi: 24 aprel 2015-ci il
Qeydiyyat №-si: 100115C – 581

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Ağaməmmədov Vaqif Məhəmməd oğlu, Abasov Sədulla Teymur oğlu, Sultanov Əlaməddin Mehdi oğlu, Əhmədov Alməmməd Yusif oğlu, Hüseynova Zenfira Qulamhüseyn qızı, Əflatunova İranbəyim Xasay qızı, Bağırova Gülüstan Səməd qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Əhmədova Elnarə Rəsul oğlu, Əflatunov Müşviq Ərəbxan oğlu, Əflatunov Elvin Əmirxan oğlu, Ağaməmmədov Hilal Mirzağa oğlu, Həsənov Qədir Kərəm oğlu, Zülfüqarov Səməndar Əjdər oğlu, Ağaməmmədov Elburus Hilal oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 28 dekabr 2019-cu il

**«Astara rayonu Alaşa kənd «Məhəmməd» məscidi» dini icması**

Qeydiyyat tarixi: 20 aprel 2016-cı il
Qeydiyyat №-si: 100116A – 633

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Rəhimov Akif Şahverdi oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Dəyişikliklərin qeydiyyat tarixi: 28 dekabr 2019-cu il

**«İsmayıllı şəhəri «Cümə» məscidi» dini icması**

Qeydiyyat tarixi: 19 may 2010-cu il
Qeydiyyat №-si: 100110A3-371

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Bilalov Şahzadə Nufər oğlu, Əhmədov Asəf Akif oğlu, Məmmədov Xalid Mustafa oğlu, Əmiraslanov Cahid Səfəralı oğlu, Mitəlov Xalid Xanlar oğlu, Teymurov Akif Babacan oğlu, Salmanov Vasif Vaqif oğlu, Mirzəyev Polad Tarix oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Adgözəlov Elvin Yaqub oğlu, Əsədov Asim Hafiz oğlu, Hacıyev Namil Məhəbbət oğlu, Hüseynov Elşad Faxrəddin oğlu, İsayev Əlipənah Əlövsət oğlu, İslamov İsa Şakir oğlu, Kazımlı Samir Ramiz oğlu, Mirzəliyev Yusif Eyvaz oğlu, Nuriyev Sadiq Fəxrəddin oğlu, Osmanov Zamiq Allahqulu oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 28 dekabr 2019-cu il

**«Quba şəhəri «Cümə» məscidi» dini icması**

Qeydiyyat tarixi: 02 fevral 2010-cu il
Qeydiyyat №-si: 100110A1 – 196

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Rəcəbov Məmməd Nüsrəddin oğlu, Şahverdiyev Akif Hacıbaba oğlu, Rzaxanov Vahid Piroğlan oğlu, Qəhramanov Fərhad Teymur oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Qurbanov İsmət Muxtar oğlu, Şirinov Mübariz Osman oğlu, Ramazanov Yusif Zəki oğlu, Bünyadov İbrahim Abdulməcid oğlu, Əliməmmədov Nəriman Rəcəb oğlu, Əlirzayev Hacı Nadir oğlu, Bayramov Əmin Vahid oğlu, Qasımov Rüstəm Qasım oğlu, Təhməzov Elçin Elman oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 28 dekabr 2019-cu il

**«İsmayıllı rayonu Qubaxəlilli kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 02 avqust 2010-cu il
Qeydiyyat №-si: 100110A4 – 468

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Abdullayev Ərziman Həmid oğlu, İbrahimov İmran Hidayət oğlu, Həsənov Nadir Əbil oğlu, Qasımov Nəsir Qərib oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Babayev Əlsafa Ələm oğlu, Şirinov Vidadi Əliqardaş oğlu, Mehdiyev Rahim Nərman oğlu, Mehdiyev Rəşad Nərman oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 28 dekabr 2019-cu il

**«Azərbaycan Bəhailəri dini mərkəzi»**

Qeydiyyat tarixi: 03 sentyabr 2004-cü il
Qeydiyyat №-si: 285

Dini qurumun ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Rövşən Məmmədrəsul Abbasov oğlu, Muftaxov Fuad Abdurəhmanoviç, Əzizova Elmira Kərim qızı, Rüstəmova Zuriyyə Yəhya qızı, Sadiqi Səidə İsmayıl qızı, Sadiqi Bəhaydin İsmayıloviç, Kaşkuli Həqiqət Qulam qızı, Məmmədəliyeva Ayşət Nizam qızı, Poladova Ülviyyə Nağı qızı, Davidova Tacibət Qaçay qızı dini qurumun təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Fərzəliyev Nicat Əli oğlu, Şabanbəyli Samir Vaqif oğlu, Ayvazova Şəhla Vahid qızı, Məmmədov Cavid İlqar oğlu, Məmmədov İlqar Ənvər oğlu, Məmmədov Elturan İlqar oğlu, İsmayılova Elyana Şahsevən qızı, Şirinov Elxan Tarverdi oğlu, Abdurəhmanov Mehman Sahib oğlu, Abdurəhmanova Almaz Şəmsəddin qızı, Abdurəhmanova Səbinə Sahib qızı, Əsgərova Fərəh Əli qızı, Cəfərova Esmira Zülfiqar qızı, Nurməmmədov Zaur İnqilab oğlu, Yusifova Aynurə Ülfət qızı dini qurumun təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Abbasov Rövşən Məmmədrəsul oğlu dini qurumun sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Cəfərov Azər Bəhlul oğlu dini qurumun sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdır.

Dəyişikliklərin qeydiyyat tarixi: 14 fevral 2020-ci il

**«Saatlı rayonu Nəsimikənd kəndi «Nəsimikənd» məscidi» dini icması**

Qeydiyyat tarixi: 09 iyun 2010-cu il
Qeydiyyat №-si: 100110A3 –397

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Rəşidov Niyaz Tupiyeviç dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Rizmanov Elvin Kərim oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi:
19 fevral 2020-ci il

**«Qəbələ rayonu Yengicə kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 16 aprel 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 294

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Ələkbərov Namik Arif oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Ələkbərov Məmmədaraz Akif oğlu, Qəhrəmanov Adil Əli oğlu, İbrahimov Müşviq Xavər oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 24 fevral 2020-ci il

**«Şamaxı rayonu Göylər kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 01 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A2 – 43

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Sadayev Əlövsəd Xasay oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Dəyişikliklərin qeydiyyat tarixi: 24 fevral 2020-ci il

**«İmişli rayonu Göbəktala kəndi «Həzrəti Əbülfəz» məscidi» dini icması**

Qeydiyyat tarixi: 02 iyul 2018-ci il

davamı səh. 15

əvvəli səh. 14

Qeydiyyat №-si: 100118A – 793

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Ataşov Barat Fəzayıl oğlu, Atayev Böyükəli Rəhim oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Savalanov Elmidar Əhliman oğlu, Abbaszadə Dilqəm Mehti oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 24 fevral 2020-ci il

**«Lənkəran rayonu Moğnojoba kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 10 fevral 2010-cu il
Qeydiyyat №-si: 100110A1 – 211

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Şabanov Şahrza İzzət oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Həsənov Mahir Əli oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 19 fevral 2020-ci il

**«İmişli rayonu Şahverdili kəndi «Əhli-beyt» məscidi» dini icması**

Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116A – 714

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Həsənov Şadman Həsənxan oğlu, Cəbrayılov Bəyverdi Muxtar oğlu, Abdullayeva Aynur Səməd qızı, Həsənov Umudvar Cabbar dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Əzimli Tural Rəsul oğlu, İmanov İmanqulu Qadir oğlu, Salmanova Mətanət Arif qızı, Abbasova Sevil Vidadi qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 24 fevral 2020-ci il

## E L A N

«Xaçmaz rayonu Çılğır kənd» dini icması (Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən 09.07.2004-cü ildə 277 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 27 fevral 2020-ci il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

«Masallı rayonu, Hişkədərə kənd «İmamzadə» ziyarətgahının (Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən 29.09.2003-cü il tarixli, 211 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 27 fevral 2020-ci il tarixli ümumi yığıncağında 02 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, milli-mənəvi dəyərlərin təbliği, eyni zamanda gənclərin zərərli dini cərəyanların təsiri altına düşməsinin, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması istiqamətində maarifləndirmə işini davam etdirir. Tədbirlərdə Dövlət Komitəsinin əməkdaşları ilə yanaşı, respublikanın müxtəlif şəhər və rayonlarının icra hakimiyyəti və hüquq mühafizə orqanı rəhbərləri, gənclər, dini icma sədrləri, din xadimləri, dindarlar, ilahiyyatçılar, ziyalılar və ictimaiyyət fəalları iştirak edirlər. Keçirilən tədbirlər DQİDK-nın təşkilatçılığı ilə, həmçinin Dövlət Komitəsi ilə müvafiq dövlət qurumları arasında imzalanan Tədbirlər Planına uyğun olaraq reallaşdırılır. Cari ay ərzində bu qəbildən olan tədbirlər:*

**4 fevral** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi, Yevlax Şəhər İcra Hakimiyyəti (ŞİH) və Yevlax rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Könüllülər ili" çərçivəsində "Könüllülər yurdu-Azərbaycan" mövzusunda;

**5 fevral** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Mingəçevir "Asan xidmət" mərkəzinin birgə təşkilatçılığı ilə "Asan xidmət" mərkəzində "Könüllülük xalqımızın xeyirxahlıq və fədakarlıq ənənəsidir" mövzusunda;

**6 fevral** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən Rayon İcra Hakimiyyəti (RİH) və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Balakən şəhəri Nizami adına 1 saylı tam orta məktəbdə "Milli-mənəvi dəyərlərimizin təbliği dini radikalizmə qarşı mübarizə vasitəsidir" mövzusunda;

**7 fevral** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Göyçay RİH və Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə Göyçay rayon Çərəkə kənd 2 saylı tam orta məktəbdə "Dini radikalizmə qarşı mübarizə" mövzusunda;

**11 fevral** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Zaqatala rayonu Əliabad qəsəbə 3№-li tam orta məktəbdə "Gənclər dini radikalizmə "yox" deyir!" mövzusunda;

**12 fevral** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı RİH və rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Saatlı şəhər C.Cabbarlı adına 3 nömrəli tam orta məktəbdə "Gəncləri dini radikalizm və digər zərərli vərdişlərdən qoruyaq" mövzusunda; DQİDK-nın təşkilatçılığı ilə Sabunçu rayonu Maştağa qəsəbəsində "Dövlət-din münasibətləri: tarix, hüquq və ənənə" mövzusunda;

**13 fevral** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Balakən rayonu Mahamalar kənd tam orta məktəbində "Milli-mənəvi dəyərlərimiz tarixdən gələn and yerimizdir" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Lənkəran ŞİH və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) birgə təşkilatçılığı ilə Lənkəran rayonunun Boladi, Şağlaser və Separadi kənd məscidlərində mənəvi dəyərlərin təbliği ilə bağlı;

**14 fevral** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Cəlilabad Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə "Gənclərin radikal təsirlərdən və zərərli vərdişlərdən qorunması yolları" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Saatlı rayonu Qara Nuru kəndi "Fatimeyi-Zəhra" məscidində "Dini radikalizmlə mübarizə və maarifləndirmə" mövzusunda;

**18 fevral** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Masallı Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə "Narkomaniyanın fərdi və ictimai təhlükələri" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və QMİ-nin birgə təşkilatçılığı ilə Bakı İslam Universitetinin Zaqatala şöbəsində "Narkomanlığa qarşı mübarizədə dini icmaların və din xadimlərinin rolu" mövzusunda; DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi, Nizami RİH və rayon Polis İdarəsinin birgə təşkilatçılığı ilə Nizami rayonu 12 saylı tam orta məktəbində "Narkomaniyanın mənəvi və fiziki zərərləri" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi, Oğuz Rayon Təhsil Şöbəsinin və Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə Oğuz rayonu Calut kənd tam orta məktəbində "Dini radikalizmə dur deyək" mövzusunda;

**19 fevral** – DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi, Oğuz Rayon Təhsil Şöbəsi və Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə Oğuz rayonu Qarabaldır kənd ümumi orta məktəbində "Narkomaniya və zərərli vərdişlərə qarşı mübarizə" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH və QMİ-nin Quba, Qusar və Xaçmaz qazılığının birgə təşkilatçılığı ilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" çərçivəsində "Narkomanlığa qarşı mübarizədə dini icmaların və din xadimlərinin rolu" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi, Ağdaş RİH və rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Könüllülər ili" çərçivəsində "Könüllülük öz xalqına və dövlətinə xidmətdir" mövzusunda; DQİDK və Binəqədi RİH-in birgə təşkilatçılığı ilə Binəqədi rayonu Xocəsən qəsəbəsində "Dövlət-din münasibətləri: tarix, hüquq və ənənə" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Cəlilabad Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə "Narkomaniyanın mənəvi və fiziki zərərləri" mövzusunda; DQİDK, Qax RİH və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Qax rayonu Zərnə kənd tam orta məktəbində "Dini radikalizmlə mübarizədə elmin rolu" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Rəhim Tağıyev adına Masallı rayon Tarix-diyarşünaslıq muzeyinin birgə təşkilatçılığı ilə Xocalı soyqırımının 28-ci ildönümü ilə bağlı;

**20 fevral** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Masallı Rayon Polis Şöbəsi və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Cəfər Cabbarlı adına Ərkivan qəsəbə 1 saylı tam orta məktəbində "Dini radikalizmlə mübarizədə ictimaiyyətin rolu" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Lənkəran ŞİH və QMİ-nin birgə təşkilatçılığı ilə Lənkəran rayonunun Digah kənd məscidində; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Beyləqan RİH-in birgə təşkilatçılığı ilə Beyləqan şəhər 3 saylı M.Mehdizadə adına tam orta məktəbdə "Gənclərin radikal dini təsirlərdən qorunması" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Vaqif adına Tülü-1 saylı kənd tam orta məktəbində "Dini radikalizm və ekstremizmə qarşı mübarizədə təhsilin rolu" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi və Salyan Rayon Gənclər və İdman idarəsinin birgə təşkilatçılığı ilə "Narkomaniyanın fərdi və ictimai təhlükələri" mövzusunda;

**21 fevral** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi, Yevlax ŞİH və YAP Yevlax rayon təşkilatının birgə təşkilatçılığı ilə "Xocalı soyqırımı insanlığa qarşı cinayətdir" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Quba rayonu Qırmızı qəsəbə Dağ yəhudiləri dini icmasının təşkilatçılığı ilə Xocalı soyqırımı qurbanlarının xatirəsinə; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və İsmayıllı RİH-in birgə təşkilatçılığı ilə İsmayıllı şəhər "Cümə" məscidində Xocalı faciəsinin 28-ci ildönümü ilə əlaqədar;

**23 fevral** – DQİDK-nın Sumqayıt bölgəsinin təşkilatçılığı ilə Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar;

**24 fevral** – DQİDK və Şəki ŞİH-in birgə təşkilatçılığı ilə "XXI əsrdən baxış: din və qadın" mövzusunda; DQİDK və Yevlax ŞİH-in birgə təşkilatçılığı ilə Yevlax Gənclər Evində "Azərbaycanın dövlət-din modeli: dünyəvilik" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Kürdəmir RİH və "N" saylı hərbi hissənin birgə təşkilatçılığı ilə, həmçinin DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Ucar rayonu Çiyni kənd "Hacı Ağamirzə" məscidi dini icmasının birgə təşkilatçılığı ilə Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar;

**25 fevral** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi, Ağdaş RİH və rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Ağdaş rayon Peşə məktəbində "Xocalı soyqırımı insanlığa qarşı cinayətdir" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Lənkəran rayonu Kənarmeşə kənd məscidində "Xocalı soyqırımı XX əsrin faciəsidir" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi və Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə Ağstafa rayon H.Əliyev Mərkəzində; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Saatlı RİH-in birgə təşkilatçılığı ilə; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Balakən rayonu Qazma kənd "Cümə" məscidi dini icmasının birgə təşkilatçılığı ilə Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar;

**26 fevral** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Beyləqan rayon "N" saylı hərbi hissənin birgə təşkilatçlığı ilə hərbi hissədə, həmçinin Sumqayıt şəhəri və Lənkəran, Astara, Lerik rayonlarında Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar baş tutub.

Çıxışlar zamanı Xocalı soyqırımının Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olduğu diqqətə çatdırılıb. Vurğulanıb ki, dünyada qəbul olunmuş beynəlxalq konvensiyalar, ümumbəşəri qanunlar Xocalı faciəsi kimi soyqırımların yolverilməz olduğunu təsdiqləyir.

Natiqlər çıxışlarında həmçinin dini radikalizm, ekstremizm kimi məsələlərə toxunublar və gənclərin bu yollardan uzaq durmalı olduqlarını vurğulayıblar. Qeyd olunub ki, gənclərin radikal qrupların təsirinə düşməməsi üçün mütəmadi olaraq maarifləndirmə tədbirləri həyata keçirilir. Həmçinin milli-mənəvi, tolerant və multikultural dəyərlərimizin qorunması istiqamətində dövlət tərəfindən mühüm addımlar atılmaqdadır. Nəzərə çatdırılıb ki, məhz görülən bu işlər nəticəsində gənc nəsildə Vətənə məhəbbət hissi daha da artmaqla yanaşı, qeyri-ənənəvi dini cərəyanlara maraq azalıb. Eyni zamanda, tədbirlərdə gənclərin narkomaniya, erkən nikah kimi zərərli meyillərdən uzaq tutulması və bu sahədə qarşıda duran vəzifələrdən danışılıb.

CƏMİYYƏT və DİN
№ 02 (343) / FEVRAL 2020-ci il

# AFİNADA TİKİLƏN İLK MƏSCİDİN AÇILIŞI OLACAQ

"Kathemerini" qəzetinin məlumatına görə, yerli əhalinin etirazlarına baxmayaraq, Yunanıstanın paytaxtı Afinada ilk məscidin açılışı planlaşdırılır. İyulun 31-də Qurban bayramının burada təntənəli şəkildə qeyd olunması nəzərdə tutulub.

Afina Avropa paytaxları arasında məscid olmayan yeganə şəhər idi. Halbuki rəsmi statistikaya görə, Yunanıstanda müsəlmanların sayı 150-200 min nəfər arasındadır.

1832-ci ildən başlayaraq Yunanıstanın heç bir hökuməti şəhərdə məscid tikintisinə icazə verməyib. Yalnız 2013-cü ildə hökumət məscidin inşa edilməsinə 946 min avro vəsait ayırıb. Qərar müsəlman icması tərəfindən müsbət qarşılanıb.



# İQLİM DƏYİŞİKLİYİNƏ QARŞI MÜBARİZƏ ÜÇÜN "YER FONDU" YARADILIB

Amerikalı milyarder, "Amazon" şirkətinin rəhbəri və yaradıcısı Ceff Bezos iqlim dəyişikliyinə qarşı mübarizə üçün "Yer fondu"nun yaradıldığını elan edib. "Yer kürəsi bizi bir araya gətirən yeganə məkandır. Gəlin onu bir yerdə qoruyaq" - deyən Bezos "instaqram" səhifəsində fonda 10 milyard dollar ayıracağını yazıb.

Qrantın bu yaydan ayrılacağını bildirən milyarder deyib ki, alimlərin, ekofəalların, qeyri-hökumət təşkilatlarının ətraf mühitin qorunub saxlanmasına yönəlmiş fəaliyyəti bu təşəbbüs çərçivəsində maliyyələşəcək: "İqlim dəyişikliyi planetimiz üçün ən böyük təhlükədir. Əgər iri və kiçik şirkətlər, dövlətlər, beynəlxalq təşkilatlar, sadə insanlar bir yerdə işləsələr, biz Yeri xilas edə bilərik".

# ÖZBƏKİSTANDA MƏHƏLLƏ VƏ AİLƏ NAZİRLİYİ YARADILIB

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin fərmanı ilə ölkədə Məhəllə və Ailə Nazirliyi yaradılıb. Raxmat Mamatov nazir, Aziz İkramov, Botir Parpiyev və Elmira Basitxanova nazir müavinləri təyin olunublar.

Yeni nazirliyin fəaliyyətinin əsas istiqamətlərindən biri "Firavan və təhlükəsiz məhəllə" prinsipinin cəmiyyətdə səmərəli tətbiqini, həmçinin ailədə və məhəllədə sosial-mənəvi ab-havanı sağlamlaşdırmaq üçün vətəndaş özünüidarə orqanları ilə sıx əməkdaşlığı həyata keçirməkdir.

Fərmana əsasən, Nazirlər Kabineti yanında "Ailə" Elmi-Praktik Tədqiqat Mərkəzinin və "Məhəllə" Tədris və Elmi-Tədqiqat Mərkəzinin bazasında "Məhəllə və ailə" Elmi-Tədqiqat İnstitutu da yaradılıb.

## Yadigar söz

**Sofokl**
*(yunan dramaturqu)*

***Xoşbəxtliyin birinci şərti ağıllı olmaqdır.***

## Bakı və Abşeron üzrə namaz vaxtları (Mart - 2020)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 05:55 | 07: 15 | 12:53 | 16:48 | 18:46 | 19:46 |
| 2 | 05:54 | 07:14 | 12:53 | 16:49 | 18:47 | 19:47 |
| 3 | 05:52 | 07:12 | 12:53 | 16:50 | 18:48 | 19:48 |
| 4 | 05:51 | 07:11 | 12:53 | 16:51 | 18:49 | 19:49 |
| 5 | 05:49 | 07:09 | 12:52 | 16:52 | 18:50 | 19:50 |
| 6 | 05:48 | 07:07 | 12:52 | 16:53 | 18:51 | 19:52 |
| 7 | 05:46 | 07:06 | 12:52 | 16:54 | 18:52 | 19:53 |
| 8 | 05:45 | 07:04 | 12:52 | 16:54 | 18:53 | 19:54 |
| 9 | 05:43 | 07:03 | 12:51 | 16:55 | 18:54 | 19:55 |
| 10 | 05:41 | 07:01 | 12:51 | 16:56 | 18:55 | 19:56 |
| 11 | 05:40 | 07:00 | 12:51 | 16:57 | 18:56 | 19:57 |
| 12 | 05:38 | 06:58 | 12:51 | 16:58 | 18:57 | 19:58 |
| 13 | 05:36 | 06:56 | 12:50 | 16:59 | 18:59 | 19:59 |
| 14 | 05:35 | 06:55 | 12:50 | 17:00 | 19:00 | 20:00 |
| 15 | 05:33 | 06:53 | 12:50 | 17:01 | 19:01 | 20:01 |
| 16 | 05:31 | 06:51 | 12:49 | 17:01 | 19:02 | 20:03 |
| 17 | 05:30 | 06:50 | 12:49 | 17:02 | 19:03 | 20:04 |
| 18 | 05:28 | 06:48 | 12:49 | 17:03 | 19:04 | 20:05 |
| 19 | 05:26 | 06:47 | 12:49 | 17:04 | 19:05 | 20:06 |
| 20 | 05:25 | 06:45 | 12:48 | 17:05 | 19:06 | 20:07 |
| 21 | 05:23 | 06:43 | 12:48 | 17:05 | 19:07 | 20:08 |
| 22 | 05:21 | 06:42 | 12:48 | 17:06 | 19:08 | 20:09 |
| 23 | 05:19 | 06:40 | 12:47 | 17:07 | 19:09 | 20:11 |
| 24 | 05:18 | 06:38 | 12:47 | 17:08 | 19:10 | 20:12 |
| 25 | 05:16 | 06:37 | 12:47 | 17:09 | 19:11 | 20:13 |
| 26 | 05:14 | 06:35 | 12:47 | 17:09 | 19:12 | 20:14 |
| 27 | 05:12 | 06:33 | 12:46 | 17:10 | 19:13 | 20:15 |
| 28 | 05:10 | 06:32 | 12:46 | 17:11 | 19:14 | 20:16 |
| 29 | 05:09 | 06:30 | 12:46 | 17:11 | 19:15 | 20:18 |
| 30 | 05:07 | 06:29 | 12:45 | 17:12 | 19:17 | 20:19 |
| 31 | 05:05 | 06:27 | 12:45 | 17:13 | 19:18 | 20:20 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10,** Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13,** Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15,** Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18,** Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# "FORBES" YAXIN ŞƏRQİN 100 ƏN YAXŞI İŞGÜZAR QADININI MÜƏYYƏN EDİB

Nüfuzlu "Forbes" jurnalı 2020-ci ildə Yaxın Şərqin 100 ən yaxşı işgüzar qadınının adını açıqlayıb. Bu regionda zərif cinsin ən varlı nümayəndələri 28 sektoru təmsil edən 23 ölkənin vətəndaşlarıdır. Siyahıya Birləşmiş Ərəb Əmirliklərinin 27 şirkətdən ibarət olan "İsa Saleh" qrupunun icraçı direktoru Raya İsa Əl Qurq, "Samba Financial Group" (Səudiyyə Ərəbistanı) korporasiyasının sahibi Rania Naşar, "Tədavül" şirkətinin rəhbəri Sara Əl Suhami və "Saudi British Bank"ın icraçı direktoru Lübna Olayan başçılıq edirlər.

Yaxın Şərqin ən varlı işgüzar qadınları arasında 9 misirli, 8 livanlı, 8 omanlı, habelə ərəb olmayan və Yaxın Şərqdə biznes fəaliyyəti ilə məşğul olan amerikalılar da var. Misirli qadın sahibkarlar arasında isə ilk yerləri "Telecom Law" firmasının rəhbəri Mona Zülfüqar və "TAQA Arabia" şirkətinin sahibi Pakinam Kafafi tuturlar.



Baş redaktor **Səyyad ARAN**

**Redaksiya şurası:**
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894